QARABAĞ AZƏRBAYCANDIR!

"Azərbaycan ilə Şimali Makedoniya arasındakı əlaqələr milli maraqlara əsaslanır"



6

# Azərbaycan-Serbiya:

## Öz resurslarına arxalanan, müstəqil siyasət aparan dost ölkələr!



3

SƏS
№ 236 (6677) 23 dekabr 2022-ci il. Qiymәti 60 qәpik

# Azərbaycanın turizm potensialına baxış



8

Yalançı "endirim" kampaniyaları: alıcıları necə aldadırlar?



15

"Paşinyana "qulaqburması" verməyin vaxtı yetişib"



13

Kəskin əzələ ağrısı, qızdırma, öskürək - Qapımızı döyən hansı VİRUSDUR?



16

**Laçın yolunda postlar qurulur : Azərbaycan nəzarəti tam bərpa edir**



**Araik-Ruben cütlüyü Yuri Musaelyanı nəyə görə döydürdülər?**

Yuri Musaelyan: "Bu quldur çete Qarabağın ermәni sakinlәrinin son damla qanını da içmәyә hazırdır"



6

# "Naxçıvana hər il dövlət büdcəsindən böyük həcmdə dotasiya ayrılıb"

## Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsini qəbul edib



**Dekabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin olunmuş Fuad Nəcəflini qəbul edib və ona müvafiq tapşırıqlarını verib.**

AZƏRTAC xəbər verir ki, qəbulda Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına göstərdiyi daimi diqqəti sayəsində və birbaşa tapşırığı ilə həyata keçirilən genişmiqyaslı işlər, o cümlədən böyük infrastruktur layihələrinin həyata keçirilməsi, Naxçıvanda qazlaşdırmanın 100 faiz səviyyəsində təmin edilməsi, enerji təchizatı, müasir yolların inşa olunması, səhiyyə və təhsil obyektlərinin tikintisi, yeni iş yerlərinin yaradılması istiqamətində görülən işlər qeyd olunub.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasına hər il dövlət büdcəsindən böyük həcmdə dotasiya ayrılıb.

Prezident İlham Əliyev tapşırıq verib ki, səlahiyyətli nümayəndə kimi Fuad Nəcəfli insanların qayğısına qalınması, korrupsiya, rüşvətxorluqla mübarizə, şəffaflıq, düzgün kadr siyasətinin həyata keçirilməsi, mərkəzi icra orqanları ilə sıx təmasda fəaliyyətlə bağlı bütün səylərini göstərsin.

Fuad Nəcəfli ona göstərilən yüksək etimada görə dövlətimizin başçısına təşəkkürünü bildirib və Prezident İlham Əliyevi əmin edib ki, bütün fəaliyyət dövlətimizin başçısının siyasəti üzərində aparılacaq, ölkə miqyasında həyata keçirilən genişmiqyaslı islahatların Naxçıvan Muxtar Respublikasında da təmin edilməsi işində səylərini əsirgəməyəcək.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Fuad Vahid oğlu Nəcəfli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilib.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 yanvar tarixli 665 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə aylıq əlavə haqqın məbləğinin müəyyənləşdirilməsi və ödənilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Anar Qabil oğlu Kərimovun Azərbaycan Respublikasının mədəniyyət naziri vəzifəsindən azad edilməsi barədə Sərəncam imzalayıb.

# Yaponiya portalı: Erməni rəsmilər "yandırılmış torpaq" siyasətində fəal iştirak ediblər

Yaponiyanın "ajmedia.jp" portalı Azərbaycan hökumətinin işğaldan azad edilmiş ərazilərdə azərbaycanlıların insan hüquqlarının kobud şəkildə pozulmasına görə Ermənistana qarşı Avropa İnsan Hüquqları Məhkəməsinə (AİHM) müraciət etməsi barədə məlumat yayıb. Yapon və ingilis dilində yayılan məlumatlarda bildirilir ki, Azərbaycan 2022-ci ilin may-avqust aylarında Ermənistanın Laçın şəhərini və iki qonşu kəndi tərk etməsi zamanı əmlakın qəsdən və məqsədyönlü şəkildə dağıdılmasına dair bir sıra sübutlar təqdim edib.







Qeyd edilib ki, həmin ərazilərdə effektiv nəzarəti həyata keçirməsinə baxmayaraq Ermənistan hökuməti bu genişmiqyaslı dağıntıların qarşısını almaq üçün heç bir addım atmayıb. Azərbaycan tərəfi, həmçinin Ermənistan rəsmilərinin "yandırılmış torpaq" siyasətində fəal iştirak etməsinin də şahidi olub.

Ermənistan hökuməti Laçın yolunda sistemli şəkildə insan hüquqları pozuntuları törədib. Yenicə aşkarlanmış dəlillər göstərir ki, Ermənistan silahlı qüvvələri 2020-ci il 10 noyabr tarixli Üçtərəfli Bəyanata əsasən tərk etməli olduqları ərazilərdə minalar, habelə mülki evlərdə mina tələləri yerləşdirməkdə davam edir. Buna Üçtərəfli Bəyanatın birmənalı pozuntusu olaraq Ermənistanda 2021-ci ildə istehsal olunmuş və Laçın yolu vasitəsilə Azərbaycana gətirilmiş minalar daxildir.

Vurğulanır ki, Ermənistan hökumətinin hərəkətləri azərbaycanlıların şəxsi və ailə həyatı, hərəkət azadlığı, mülk və əmlakdan dinc istifadə hüququnun pozulmasıdır. Bildirilir ki, Azərbaycan insan hüquqlarının kobud şəkildə pozulması nəticəsində dəymiş ziyana görə kompensasiya, reparasiya, restitusiya, digər xərclərin qarşılanmasını tələb edir.

# "Erməni sakinlərə qarşı tətbiq edilən "blokada" ilə bağlı iddiaların heç bir əsası yoxdur"

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Draqana Kojiç arasında görüş keçirilib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanla BQXK arasında əməkdaşlıq məsələləri, bölgədə postmünaqişə dövründə görülən işlər və Laçın yolu ətrafında vəziyyət müzakirə olunub.



Görüşdə nazir Ceyhun Bayramov BQXK-nın ölkəmizdə həyata keçirdiyi fəaliyyətin əhəmiyyətini qeyd edib. Daha sonra, Laçın yolunda etirazlara səbəb olan vəziyyət barədə qarşı tərəfə ətraflı məlumat verilib. Etirazların səbəbinin Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərdə həyata keçirilən qeyri-qanuni iqtisadi fəaliyyət, Laçın yolundan bu məqsədlə sui-istifadə olduğu diqqətə çatdırılıb. Bununla yanaşı, davam edən hərbi təxribatlar, Laçın yolundan 2021-ci il Ermənistan istehsalı minaların ötürülməsi və dinc əhaliyə qarşı təhdidlər qeyd edilib.

Laçın yolunun guya Azərbaycan tərəfindən bağlanması, erməni sakinlərinə qarşı tətbiq edilən "blokada" və "humanitar fəlakət"lə bağlı irəli sürülən iddiaların heç bir əsasının olmadığı vurğulanıb. BQXK-nın ərazidə fəaliyyət göstərdiyi, avtomobillərinin mütəmadi əsasda yoldan istifadə etməsinin buna sübut olduğu bildirilib.

Vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin yol boyu hərəkət rejiminin dəyişməz olaraq qaldığı, Azərbaycan tərəfinin birbaşa və ya BQXK vasitəsilə yerli əhaliyə hər bir yardım göstərməyə hazır olduğu bildirilib. Bununla yanaşı, özlərini yerli ermənilərin "nümayəndələri" kimi təqdim edən şəxslərin əhalini yoldan istifadədən çəkindirməsinin, bununla "humanitar fəlakət" mövcud olduğu təəssüratı yaratmasının qarşısının alınması üçün səylərin vacib olduğu diqqətə çatdırılıb. Görüş zamanı, eyni zamanda digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan-Serbiya:

## Öz resurslarına arxalanan, müstəqil siyasət aparan dost ölkələr!



Bugün Azərbaycan dünyanın ən nüfuzlu və sabit inkişaf etməkdə olan ölkələri arasında öz yerini kifayət qədər möhkəmləndirib. Bu da, təbii ki, müstəqillik illərində ümummilli lider Heydər Əliyevin formalaşdırdığı uğurlu daxili və xarici siyasət, eləcə də son 19 ildə Prezident İlham Əliyevin yürütdüyü milli maraqlara söykənən siyasi xəttin sayəsində mümkün olub. Xüsusi olaraq vurğulamaq lazımdır ki, iki il əvvələ qədər Azərbaycan dünyada Cənubi Qafqazın iqtisadi və hərbi gücü, nəhəng enerji və nəqliyyat infrastrukturlarının müəllifi, regionda söz sahibi olan aparıcı dövlət kimi tanınırdı. 2020-ci ilin Vətən müharibəsində isə bunların sırasına biri də əlavə olundu: Cənubi Qafqazın qalib dövləti. 44 günlük müharibədə qazanılan qələbə Azərbaycana dünyada olan ehtiramı daha da gücləndirdi, dövlətimizin nüfuzunu daha da artırdı. Azərbaycan öz gücü ilə tarixi ədaləti bərpa edib və yeni reallıqlar yaradıb. Bu isə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasətin nəticəsidir ki, bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük hörmətə layiq olan, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası yolunda, Güclü Orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur. Və bunun nəticəsidir ki, Azərbaycanın dünyadakı dostlarının sayı artmaqdadır həmçinin, beynəlxalq təşkilatlarda fəaliyyəti çox müsbətdir.



Belə ki, Mərkəzi və Şərqi Avropa ölkələri, o cümlədən Serbiya Respublikası ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin vacib istiqamətlərindən biridir. Qeyd olunmalıdır ki, Azərbaycan da öz növbəsində Serbiyanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir, Kosovonun müstəqilliyini tanımır və bütün beynəlxalq müstəvilərdə bu mövqedən çıxış edir.

Belə ki, Serbiya Prezidenti Aleksandar Vuçiç dekabrın 21-də Azərbaycana işgüzar səfəri Səfər çərçivəsində istər prezidentlərin təkbətək, istərsə də geniş tərkibdə görüşlərində, həmçinin səfərin mahiyyətini özündə əks etdirən dövlət başçılarının mətbuata birgə bəyanatlarında diqqəti çəkən mühüm məqamlardan biri Prezident İlham Əliyevin şəxsi nüfuzuna, yürütdüyü siyasətə böyük dəyərin verilməsi oldu. Azərbaycan Prezidenti İlham Əliyev Serbiya Prezidenti Aleksandar Vuçiçlə təkbətək görüşdən sonra mətbuata bəyanatında bildirib ki, Serbiya və Azərbaycan strateji tərəfdaşdırlar, strateji tərəfdaşlığa dair bir neçə sənəd imzalanıb. Biz hər zaman bir-birimizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləmişik, dəstəkləyirik və bu siyasət dəyişməz olaraq qalacaq.Biz beynəlxalq hüququn tərəfdarıyıq və əminik ki, ölkələr arasında münasibətlər ancaq beynəlxalq hüququn norma və prinsipləri əsasında tənzimlənə bilər. Bu sahədə dünyada müşahidə olunan ikili standartların təzahürləri, əlbəttə ki, bizi çox narahat edir. Beynəlxalq hüququn norma və prinsipləri bütün ölkələr üçün əsas olmalıdır", - deyə dövlətimizin başçısı vurğulayıb.

### AZƏRBAYCAN PREZİDENTİ: "Gələn ildən Azərbaycanın elektrik enerjisinin Serbiyaya ixracı üçün əməli addımlar atılacaq"

"Energetika sektoru əməkdaşlığımızın bir hissəsidir. Son vaxtlar bu sahə daha böyük əhəmiyyət kəsb edir. Azərbaycanın təbii resursları artıq müxtəlif istiqamətlər üzrə, həmçinin Avropa qitəsinə, o cümlədən Serbiyaya qonşu olan ölkələrə ixrac edilir",- deyən Prezident İlham Əliyev onu da bildirdi ki, həm təbii qaz, həm elektrik enerjisi ilə əlaqədar əməkdaşlıq üçün imkanlar var, müvafiq danışıqlar aparılıb: "Gələn ildən başlayaraq Azərbaycanın elektrik enerjisinin Serbiyaya ixrac edilməsi üçün əminəm ki, əməli addımlar atılacaqdır".Prezident İlham Əliyev Serbiya Prezidenti Aleksandar Vuçiçlə təkbətək görüşdən sonra mətbuata bəyanatında söyləyib ki, Azərbaycan və Serbiya öz resurslarına arxalanan, müstəqil siyasət aparan ölkələrdir: "Prezident Vuçiçin uzaqgörən siyasəti nəticəsində Serbiya şəhərsalma sahəsində, eyni zamanda, iqtisadi və sənaye inkişafı, kənd təsərrüfatı sahələrində hərtərəfli inkişaf edir. Bu bizim gələcək əməkdaşlığımız üçün yeni imkanlar yaradır. Çünki həm Serbiya, həm Azərbaycan öz resurslarına arxalanan ölkələrdir, müstəqil siyasət aparan və bir-biri ilə sıx əlaqədə olan ölkələrdir".

Azərbaycan Prezidenti həmçinin, Vuçiçin dəvəti ilə bir ay əvvəl Serbiyada rəsmi səfərdə olduğunu və səfər təəssüratlarını bölüşə rək bildiridi ki, bundan sonra da ikitərəfli əlaqələr sürətlə inkişaf etsin və qəbul edilmiş qərarlar vaxt itirmədən icra olunsun: "Şadam ki, əziz dostum mənim dəvətimi qəbul edib və bir ay keçmədən Bakıya səfər edib. Bu onu göstərir ki, əlaqələrimizin dinamikası doğrudan da çox müsbətdir. Biz keçən ay Belqradda qəbul etdiyimiz qərarların tezliklə yerinə yetirilməsini arzulayırıq. Nəinki arzulayırıq və eyni zamanda, hökumət üzvlərinə bu qərarların icra edilməsi ilə əlaqədar müvafiq göstərişlər verildi. Bilirəm ki, bu ay ərzində bizim müvafiq strukturların rəhbərləri bir-biri ilə təmasda olmuşlar və bu gün bu təmaslar davam edir. Bir sözlə, biz istəyirik ki, bundan sonra da ikitərəfli əlaqələr sürətlə inkişaf etsin və qəbul edilmiş qərarlar vaxt itirmədən icra olunsun".Prezident İlham Əliyev həmçinin söyləyib ki, Serbiya və Azərbaycan hər zaman bir-birinin ərazi bütövlüyünü, suverenliyini dəstəkləyib və dəstəkləyir. Bu siyasət dəyişməz olaraq qalacaq.

### PREZİDENT İLHAM ƏLİYEV: "Ölkələrimizin nəqliyyat-logistika sahəsində böyük potensialı var"

Azərbaycan prezidenti onu da bildirdi ki, Azərbaycan və Serbiyanın gözəl strateji tərəfdaşlıq münasibətləri var: "Azərbaycan və Serbiyanın gözəl strateji tərəfdaşlıq münasibətlərindən və eyni zamanda, şəxsi dostluq münasibətlərimizdən istifadə edərək, əlbəttə, biz ümid edirik ki, bütün sahələrdə, ilk növbədə, ticarət sahəsində bunun nəticəsi olacaq".Dövlətimizin başçısı əmin olduğunu bildirib ki, hələlik istənilən səviyyədə olmayan ticarət dövriyyəsi əldə edilmiş razılaşmaların icrası nəticəsində artacaq. "Nəqliyyat-logistika sahəsində böyük potensial var. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan və Serbiya ərazilərindən beynəlxalq nəqliyyat dəhlizləri keçir, burada da uzlaşma və bağlantının yaradılması üçün bizim müvafiq qurumlar fəal işləməlidir. Aidiyyəti qurumlar arasında təmaslar artıq yaranıbdır", - deyə Azərbaycan Prezidenti qeyd edib. Azərbaycan Prezidenti Serbiya ilə ikitərəfli formatda və çoxtərəfli formatda əməkdaşlıq edəcəklərini də deyib: "Dörd gün bundan əvvəl Azərbaycanın elektrik enerjisinin Avropaya çatdırılması üçün müvafiq saziş imzalanıb. Qara dənizin dibi ilə çəkiləcək kabel Azərbaycanı bu sahədə də Avropa üçün önəmli təchizatçı kimi təsdiqləyəcək".

Dövlətimizin başçısı deyib: "Bütün bunlar yeni imkanlar, yeni üfüqlər açır və biz bu sahədə, əlbəttə ki, ikitərəfli formatda və çoxtərəfli formatda əməkdaşlıq edəcəyik".Prezident İlham Əliyevin Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə təkbətək görüşündə Serbiya lideri bildirib ki, Azərbaycan Prezidentinin sözünə hər hansı imzadan daha çox inanırıq: "Azərbaycan bizim çoxdankı dostumuzdur və ümidvaram ki, bundan sonra da biz münasibətlərimizi daha da inkişaf etdirəcəyik. Heç kəs bir faktı inkar edə bilməz ki, biz yaxın dostuq, yaxın dost kimi qalırıq".Serbiya prezidenti mətbuata bəyanatında bildirmişdir ki, Prezident İlham Əliyev nəyi deyirsə, mənim üçün kifayətdir, bilirəm ki, bu, belə də olacaq: "Mən Prezident Əliyevə dedim ki, bütün şəffaf protokol məsələlərinə görə bəzi sənədlər imzalanmalı olsa da, onun sözü bizim üçün yetərlidir. Çünki biz onun sözünə hər hansı imzadan daha çox inanırıq. O, nəyi deyirsə, mənim üçün kifayətdir, bilirəm ki, bu, belə də olacaq. Bu, bizim üçün həqiqətən də vacibdir".

Göründüyü kimi, Serbiya Prezidentinin fikirləri Prezident İlham Əliyevin nüfuzuna, şəxsi keyfiyyətlərinə, həm ölkə daxilində, həm də beynəlxalq arenada birlik, həmrəylik çağırışlarını real həyatda təsdiqləməsinə verilən dəyərdir. "Mən Sizin nailiyyətlərinizə görə sevinirəm. Həm mənim nümayəndə heyətim, həm də mən özüm Azərbaycan xalqının və cənab Prezident, şəxsən Sizin səmimi dostunuzuq. Nə üçün mən qısa çıxışıma bununla başladım? Çünki Azərbaycanda gördüyümüz belə sürətli inkişafı müasir dünyada yalnız çox az yerdə görmək olar". Bu barədə Serbiya Prezidenti Aleksandar Vuçiç Azərbaycan Prezidenti İlham Əliyevlə təkbətək görüşdən sonra mətbuata bəyanatında bildirib.Azərbaycandakı inkişafın neft və qaza görə olmadığını qeyd edən Serbiya Prezidenti deyib: "Mən Azərbaycandan 10 dəfə çox neft və qaz ehtiyatlarına malik olan ölkələri tanıyıram, onların vəziyyəti Azərbaycanınkından 10 dəfə pisdir. Bu isə ölkə rəhbərliyinin gücündən, Prezident Əliyevin uzaqgörənliyindən, onun Azərbaycanın və müasir dünyanın üzləşdiyi çağırışlara yaxşı bələd olduğundan xəbər verir. Bu, yaxşı baxışa malik olan ölkə rəhbərliyi ilə necə fərq yarada bildiyinizdən xəbər verir".

Aleksandar Vuçiç vurğulayıb ki, "Prezident Əliyev özü ilə bir çoxlarımızın arasında və dünya miqyasında Azərbaycandan da daha böyük həcmdə təbii ehtiyatlara və xammala malik ölkələr arasında olan fərqi göstərə bildi. Prezident Əliyev kimi ölkəsinə sevgi ilə rəhbərlik etdikdə belə bir vəziyyətin şahidi oluruq".

### SERBİYA PREZİDENTİ: "Bizim enerji sahəsi ilə bağlı əməkdaşlıq etməli çox məsələlərimiz var"

Serbiya Prezidenti Aleksandar Vuçiç onu da söyləyib ki, biz birlikdə əməkdaşlığın mümkün sahələrini təhlil etdik. Sözsüz ki, bizim enerji sahəsi ilə bağlı əməkdaşlıq etməli çox məsələlərimiz var: "Biz artıq özümüzün ötürücü sistemlərimizin inşası, inkişafı yollarını müzakirə etdik ki, Rumıniya və Macarıstana sualtı xətlə nəql olunacaq elektrik enerjisini əldə edək və özümüzün necə enerji benefisiarları ola biləcəyimizi nəzərdən keçirək. Biz Bolqarıstan və Şimali Makedoniya ilə birlikdə inşa etməyə hazırlaşdığımız interkonnektorlar vasitəsilə Azərbaycan qazını əldə etməyin yolları barədə müzakirə apardıq. Bütün bunlar bizim üçün vacibdir. Lakin hesab edirəm ki, biz eyni dərəcədə mühüm olan, bəlkə də daha mühüm olan bəzi yeni əməkdaşlıq sahələri açırıq. Söhbət bizim ümumi fəaliyyətimizdən, müdafiə sənayesində texnologiya mübadiləsindən və üçüncü ölkələrin bazarlarına birlikdə çıxara biləcəyimiz bəzi məhsullar üzərində aparılan işdən gedir".

Bir sözlə, bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanla Serbiya arasındakı münasibətlərin yaxşı perspektivləri var və yüksək səviyyəli qarşılıqlı səfərlər əlaqələrin inkişafına töhfə verəcək. Çünki Serbiya Prezidenti Aleksandar Vuçiçin dediyi kimi: "Azərbaycan və Prezident İlham Əliyev nəinki Serbiya üçün, eyni zamanda, hamı üçün tamamilə sadiq tərəfdaşdır".

***RƏFİQƏ KAMALQIZI***






# Şimali Makedoniyada Türkcə Təhsil Bayramı münasibətilə təntənəli tədbir keçirilib

## YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti tədbirdə iştirak edib













**Dekabrın 21-də Şimali Makedoniyanın paytaxtı Skopyedə bu ölkədə yaşayan türklərin rəsmi bayram kimi qeyd etdiyi Türkcə Təhsil Bayramı münasibətilə təntənəli tədbir keçirilib.**

Dövlət və hökumət nümayəndələrinin, Şimali Makedoniyada fəaliyyət göstərən siyasi partiya təmsilçilərinin, tanınmış elm və mədəniyyət xadimlərinin qatıldığı tədbirdə Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti də iştirak edib.

Türk Demokratik Partiyasının sədri, Şimali Makedoniya parlamentinin deputatı və Şimali Makedoniya - Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü Beycan İlyas çıxış edərək türklərin bu ölkənin ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında fəal rol oynadıqlarını və mühüm nailiyyətlərə imza atdıqlarını bildirib. O, ana dilində təhsilin əhəmiyyətindən bəhs edərək Türkcə Təhsil Bayramının təntənəli şəkildə qeyd edilməsinin milli həmrəylik nümunəsi olduğunu söyləyib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Yeni Azərbaycan Partiyası adından və öz adından tədbir iştirakçılarını salamlayıb, bu möhtəşəm bayram münasibətilə Şimali Makedoniya türklərinə təbriklərini çatdırıb. "Belə bir əlamətdar gündə dostlarımızın, qardaşlarımızın yanında olmaqdan məmnunluğumuzu ifadə etmək istəyirəm", - deyən YAP Sədrinin müavini ana dilində təhsilin millətin inkişafını təmin, gələcəyini isə təyin edən ən önəmli amillərdən biri olduğunu söyləyib. Tahir Budaqovun sözlərinə görə, yaxın tarixə ekskurs etdikdə görürük ki, 78 il əvvəl - 21 dekabr 1944-cü ildə Türk dilində təhsil almaq hüququnun qazanılması Makedoniya türklərinə cəmiyyət həyatının müxtəlif istiqamətlərində - elm, təhsil, mədəniyyət, siyasət və digər sahələrdə mühüm uğurlar qazanmağa, gələcək inkişafın etibarlı bünövrəsini yaratmağa imkan vermişdir.

Artıq 15 ildir ki, Şimali Makedoniyada Türkcə Təhsil Bayramının təntənəli şəkildə, coşquyla qeyd edildiyini vurğulayan YAP Sədrinin müavini böyük mənəvi-siyasi əhəmiyyəti olan bu tarixin təkcə Şimali Makedoniya türklərinin deyil, eyni zamanda, müxtəlif ölkələrdə məskunlaşmış, tarixi ənənələrlə müasirliyin vəhdətini yaratmış Türk millətinin ortaq dəyəri olduğunu söyləyib. O əlavə edib ki, bu reallıq öz növbəsində Şimali Makedoniyada tolerantlıq mühitinin mövcudluğunu və multikultural dəyərlərin yaşadıldığını, xalqların bir-birinə hörmət prinsipi əsasında mehriban birgəyaşayışa malik olduqlarını və öz hüquqlarından sərbəst şəkildə istifadə etdiklərini göstərir.

"Türkcə təhsil milli özünüdərkin gücləndirilməsi ilə yanaşı, Türk dünyasına hərtərəfli inteqrasiya baxımından da önəmlidir. Xüsusilə nəzərə almaq lazımdır ki, bu gün yeni geosiyasi reallıqların yarandığı, müxtəlif çağırışların meydana çıxdığı şəraitdə dövlətçilik maraqlarının, milli-mənəvi dəyərlərin qorunması hər zaman olduğundan daha aktual və vacibdir. Ona görə də türkdilli toplumlar arasında sıx əlaqələrin qurulması zəruridir. Milli-etnik dözümlülüyün mövcud olduğu və demokratiyanın təşəkkül tapdığı Şimali Makedoniyada məskunlaşmış türk toplumu istər tarixi ənənələrin yaşadılması, istərsə də müasir dəyərlər və çağırışlar əsasında Türk dünyasına inteqrasiya baxımından öz fəallığı ilə seçilir", - deyə Tahir Budaqov bildirib.

YAP Sədrinin müavini vurğulayıb ki, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev dost ölkələrlə, o cümlədən Şimali Makedoniya ilə münasibətlərin inkişafına böyük önəm verməklə yanaşı, Türk dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində də məqsədyönlü addımlar atır. Öz növbəsində, Yeni Azərbaycan Partiyası da qardaş xalqların, dost ölkələrin siyasi partiyaları ilə əməkdaşlığın genişləndirilməsi üçün məqsədyönlü addımlar atır. "Yeni Azərbaycan Partiyası ilə Şimali Makedoniyanın Türk Demokratik Partiyası arasında münasibətlərin inkişafı ilə bağlı qarşılıqlı siyasi iradə nümayiş etdirilməsi də bu baxımdan mühüm əhəmiyyətə malikdir. Qeyd etmək istəyirəm ki, 2022-ci ilin mayın 10-da Türk Demokratik Partiyasının sədri cənab Beycan İlyasın rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri və səfər çərçivəsində Əməkdaşlıq Protokolunun imzalanması, 2022-ci ilin noyabrında isə Yeni Azərbaycan Partiyasının 30 illik yubiley tədbirinə, eyni zamanda, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının "Təhlükəsizlik və əməkdaşlıq: Siyasi partiyaların rolu" mövzusunda Bakıda keçirilmiş xüsusi konfransına qatılaraq çıxış etməsi nəinki partiyalarımız, ümumilikdə iki dövlət arasında əlaqələrin inkişafı üçün geniş imkanlar yaratmışdır. İnanırıq ki, birgə təşəbbüslərimiz və sıx əməkdaşlığımız bundan sonra istər partiyalarımız, istər ölkələrimiz, istərsə də Türk dünyası üçün əhəmiyyətli uğurlar qazanmağa və ortaq hədəflərə çatmağa imkan verəcək", - deyən Tahir Budaqov Şimali Makedoniya türklərini milli birlik rəmzi və mənəvi-siyasi inkişaf amili olan Türkcə Təhsil Bayramı münasibətilə təbrik edərək xalqlarımızı işıqlı sabaha - parlaq gələcəyə aparan tərəqqi yolunda birlikdə addımlamağı və yeni-yeni nailiyyətlər qazanmağı arzulayıb.

Daha sonra çıxış edən Şimali Makedoniya Respublikasının Baş naziri Dimitar Kovaçevski bu əlamətdar gün münasibətilə təbriklərini çatdırıb. O, Türkcə Təhsil Bayramının qeyd edilməsinin əhəmiyyətindən, ölkədə həyata keçirilən siyasətin milli birliyə xidmət etməsindən bəhs edib, Şimali Makedoniya türklərinə fəaliyyətlərində uğurlar diləyib.

Tədbir bədii hissi ilə davam edib, tanınmış sənətçilərin vətənpərvərlik ruhunda ifaları maraqla qarşılanıb.

# Həmrəylik və tolerantlığın tək ünvanı - Azərbaycan




Azərbaycan Respublikasında müasir dövrdə millətlərarası münasibətlər və din sahəsində həyata keçirilən dövlət siyasəti beynəlxalq hüquq normalarına və zəngin tarixi köklərə əsaslanır. Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri birgə yaşayır və ölkəmizin uğurlu inkişafına töhfələrini verirlər. Bütün dinlərə hörmətlə yanaşan Azərbaycanın islami dəyərlərə də olan münasibəti də əməli fəaliyyətdə aydın görünür. Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsi nəticəsində müstəqil Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi. Ulu Öndər Heydər Əliyev öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək, onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix və adət-ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı. Heydər Əliyev deyirdi: "Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O, təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir. Azərbaycan müstəqil, demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir".



## "AZƏRBAYCAN ONUN ƏRAZİSİNDƏ YAŞAYAN BÜTÜN MİLLƏT VƏ XALQLARIN ÜMUMİ VƏTƏNİDİR"

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsi ilə mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarına hörmət təmin olundu. Qəbul edilən bir çox qanunlarda Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə təminat verildi. Ulu Öndər Heydər Əliyev ilk dəfə olaraq multikulturalizmi azərbaycançılıq ideologiyasının tərkib hissəsi kimi təqdim etdi."Milliyətindən, irqindən, dilindən və dini mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan Respublikasının bütün vətəndaşları eyni hüquqlara malikdirlər və bu hüquqlar qorunmalıdır", - deyə Heydər Əliyev bildirmişdir. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ulu Öndər Heydər Əliyev deyirdi: "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da - bütünlükdə hamısı azərbaycanlıdır".Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqamət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modellərini tədqiq və təşviq etmək məqsədilə dövlət başçısının Sərəncamı ilə 15 may 2014-cü ildə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı. Multikulturalizm sahəsində dünyanın aparıcı mütəxəssislərinin, görkəmli ictimai və siyasi xadimlərinin Bakıda beynəlxalq səviyyədə belə bir mərkəzin açılmasını son dərəcə yüksək qiymətləndirmələri, məhz Azərbaycanın bu gün dünya multikulturalizminin mərkəzinə çevrilməsi reallığını aydın şəkildə nümayiş etdirir.

Müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət, o cümlədən dini ocaqlarımıza məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. Müstəqil Azərbaycan dünyəvi, müasir, dünyaya açıq olan dövlət olmaqla yanaşı, milli dəyərlərə, adət-ənələrinə də böyük hörmətlə yanaşan bir ölkədir. Dövlət başçısı Cənab İlham Əliyev mütəmadi olaraq din xadimləri ilə görüşür, dini konfessiyalara maddi yardımlar edilir, dini ibadət yerləri təmir-bərpa olunub inanclı insanların istifadəsinə verilir. Azərbaycanda dövlət dini məsələlərə qarışmır, əksinə, çalışır ki, kömək göstərsin. Dövlət başçısının çıxışlarının birində vurğuladığı kimi: "Azərbaycanda din dövlətdən ayrıdır. Ancaq dövlət dindarlara daim dəstək, dayaq olur".

## "ÖLKƏMİZDƏ SABİTLİYİN MƏNBƏYİ XALQIMIZIN İRADƏSİDİR, XALQIMIZIN SEÇİMİDİR"

Müasir dövrümüzdə ölkəmizdə mövcud ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi və etnik-dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən dövlət siyasətinin məntiqi nəticəsidir. Bu gün ölkəmizdə dövlət və xalq birliyi sayəsində ictimai asayiş və əmin-amanlıq mövcuddur. Müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin, etnik azlıqların harmoniya halında yaşadığı Azərbaycan uğurlu bir inkişaf yolundadır. Azərbaycan ekstremizm və dözümsüzlük əleyhinə çıxış edir, kənar qüvvələrin, xaricdən gələn təhlükələrin qarşısını almaqda güclü və qətiyyətlidir. "İndiki şəraitdə biz görürük ki, dünyanın müxtəlif yerlərində dini məzhəb zəminində qan tökülür, müharibələr alovlanır, böyük faciələr yaşanır" - deyən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, elə etməliyik ki, həm Azərbaycanda, həm yaşadığımız bölgədə vəziyyət müsbət istiqamətdə inkişaf etsin:"Biz adada yaşamırıq, biz bu bölgədə yaşayırıq və yaşayacağıq. Ona görə biz həm ölkə daxilində bu məsələləri daim diqqət mərkəzində saxlayırıq və hesab edirəm ki, beynəlxalq təşəbbüslərlə bölgədə və dünyada dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi işinə öz töhfəmizi veririk".

Həqiqətən də, Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir. "Ölkəmizdə sabitliyin mənbəyi xalqımızın iradəsidir, xalqımızın seçimidir", - deyən Azərbaycan Prezidenti Cənab İlham Əliyev bu gün ölkəmizin dünya miqyasında sabitliyi ilə seçilən ölkələrdən birinə çevrildiyini bildirib. Belə bir ölkə multikultural və tolerant dövlət kimi də tanınır. Təsadüfi deyil ki, dünya dövlətləri Azərbaycanın bu sahədə öz təcrübəsini yaymasında maraqlıdır. Azərbaycan yüksək dəyərlərə sahib olan multikultural cəmiyyətdir. Azərbaycan əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar. Bu gün Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir və 7 sinaqoq, 4 gürcü kilsəsi də fəaliyyətdədir.

## "MULTİKULTURALİZM ALTERNATİVSİZ BİR HƏRƏKAT OLMALIDIR"

Müasir dünyada baş verən siyasi proseslər, müsəlman ölkələrindəki müharibə və münaqişələr, bəzi ölkələrdə islamofobiyanın yayılması islam dünyasında həmrəyliyin zəruriliyini bir daha əyani surətdə göstərir. Belə şəraitdə Azərbaycan dünyada həmrəyliyin, eləcə də islam həmrəyliyinin təmin edilməsinin tərəfdarı kimi çıxış edir. Bu gün Azərbaycan islam həmrəyliyi ideyalarına və mədəniyyətlərarası dialoq ənənələrinə sadiqdir.

Ölkəmizdə olan tolerant və multikultural reallığın təkcə azərbaycanlıların deyil, xarici ölkə alimlərinin, görkəmli elm xadimlərinin, siyasət nümayəndələrinin, həmçinin tələbələrin gözü ilə dünyaya təqdim edilməsi də müsbət ənənəyə çevrilməkdədir. Hazırda dünyanın 13, Azərbaycanın 28 nüfuzlu ali təhsil ocağında Azərbaycan multikulturalizmi tədris edilir. Eyni zamanda, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə qış və yay məktəbləri təşkil olunur. Qış və yay məktəbləri xarici ölkə gənclərinin nəzəri şəkildə öyrəndiklərini multikultural və tolerant dəyərlərin qorunub yaşandığı ölkəmizdə öz gözləri ilə görüb şahid olmasına şərait yaradır.

Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir. Müasir dövrdə Azərbaycanda həyata keçirilən multikulturalizm siyasəti dövlətin tolerantlıq prinsiplərinə sadiq qalmasının bariz nümunəsidir.

Bu gün tolerantlığın məkanı, multikultural ənənələrə, islam dininə sadiq müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub-saxlanması və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönəlmiş mühüm layihələrin, mötəbər forumların gerçəkləşdirilməsi sahəsində zəngin təcrübəyə malikdir. Multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı, bilavasitə, dövlət dəstəyindən qaynaqlanır. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, biz nəinki ölkə daxilində millətlərarası və dinlərarası münasibətləri ən yüksək səviyyədə tənzimləyirik, həll edirik, biz dünyaya nümunə də göstəririk: "Bax, belə inkişaf etmək lazımdır. Multikulturalizm alternativsiz bir hərəkat olmalıdır. Hesab edirəm ki, biz bu nümunəni göstərərək, başqa yerlərə də öz təsir imkanlarımızı genişləndiririk".

***Zümrüd BAYRAMOVA***



# "Azərbaycan ilə Şimali Makedoniya arasındakı əlaqələr milli maraqlara əsaslanır"

## Şimali Makedoniya Respublikasının Baş naziri YAP nümayəndə heyətini qəbul edib





Şimali Makedoniya Respublikasının Baş naziri Dimitar Kovaçevski Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Yeni Azərbaycan Partiyasının nümayəndə heyətini ölkəsində görməkdən məmnunluğunu ifadə edən Dimitar Kovaçevski Şimali Makedoniyanın Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu bildirib. O, iki ölkənin rəsmilərinin müxtəlif səviyyələrdə keçirilən görüşlərində əməkdaşlıq imkanlarının dəyərləndirildiyini və önəmli təşəbbüslərin irəli sürüldüyünü diqqətə çatdırıb. Baş nazir Şimali Makedoniya ilə Azərbaycan arasında ayrı-ayrı sahələrdə işbirliyinin dərinləşdirilməsi üçün geniş potensialın mövcudluğunu diqqətə çatdırıb, ikitərəfli əlaqələrin inkişafı ilə əlaqədar ardıcıl addımlar atılmasının mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. O, həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında önəmli rol oynadığını söyləyib, bu sahədə tərəfdaşlıq əlaqələrinin gücləndirilməsinin önəmini nəzərə çatdırıb.

Dimitar Kovaçevski Şimali Makedoniya və Azərbaycanın ayrı-ayrı qurumları, o cümlədən siyasi partiyaları arasında davamlı əməkdaşlığın da vacib olduğunu bildirib.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov səmimi qəbula və yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirib. O, Azərbaycan ilə Şimali Makedoniya arasındakı əlaqələrin milli maraqlara əsaslandığını bildirib, dövlətlərarası münasibətlərin inkişafı üçün mühüm potensialın olduğunu diqqətə çatdırıb. YAP Sədrinin müavini Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan strateji əhəmiyyətli layihələrin Avropanın enerji təhlükəsizliyinə töhfə olduğunu vurğulayıb. Azərbaycanın enerji siyasətində təbii qaz təchizatı mənbələrinin şaxələndirilməsinin mühüm yer tutduğunu diqqətə çatdıran Tahir Budaqov Şimali Makedoniyanın XXI əsrin layihəsi kimi xarakterizə edilən "Cənub Qaz Dəhlizi"ndə iştirakının iki ölkə arasında əlaqələrin çoxşaxəli tərəfdaşlıq platformasında möhkəmlənməsinə geniş imkanlar yaradacağını deyib. Tahir Budaqov inam və etimada əsaslanan qarşılıqlı faydalı münasibətlərin, genişmiqyaslı işbirliyinin istər Azərbaycan, istərsə də dost və tərəfdaş ölkələr üçün faydalı və perspektivli olduğunu söyləyib.

YAP Sədrinin müavini gələn il ATƏT-ə sədrlik edəcək Şimali Makedoniyaya uğurlar arzulayıb və qurumun Azərbaycan-Ermənistan münasibətlərinə obyektiv və ədalətli yanaşacağına ümidvar olduğunu bildirib.

Tahir Budaqov Azərbaycan ilə Şimali Makedoniyanın siyasi təsisatları arasında əməkdaşlığın əhəmiyyətini də nəzərə çatdırıb. O, geniş beynəlxalq əlaqələrə malik olan YAP ilə Şimali Makedoniya Türk Demokratik Partiyası arasında işbirliyinin dərinləşdirilməsinin dövlətlərarası münasibətlərin inkişafı üçün xüsusi önəm kəsb etdiyini vurğulayıb. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunub.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətində Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, Azərbaycan-Şimali Makedoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, YAP İdarə Heyətinin üzvü Musa Quliyev, Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən, YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Hülya Məmmədli təmsil olunurlar.

# Araik-Ruben cütlüyü Yuri Musaelyanı nəyə görə döydürdülər?

## Yuri Musaelyan: "Bu quldur çete Qarabağın erməni sakinlərinin son damla qanını da içməyə hazırdır"



FAKT

Xankəndidəki cinayətkar rejim vəhşi üsullarla Qarabağdakı erməni mənşəli Azərbaycan vətəndaşlarına qarşı vəhşilik siyasətini davam etdirir. Belə ki, bir neçə gün əvvəl Xankəndi sakini Yuri Musaelyanın evinə basqın edilib və o, ailəsinin, azyaşlı uşaqlarının gözləri qarşısında vəhşicəsinə döyülüb, təhdid edilib. Onun bu vəziyyətə salınmasının səbəbi isə cinayətkar rejimin rəhbərliyinə qarşı etiraz etməsi olub. Məsələ ondadır ki, Rusiya sülhməramlıları kontingentinin müvəqqəti yerləşdikləri ərazilərdə Araik Arutyunyan və Ruben Vardanyan cütlüyünün süni qıtlıq və dərman çatışmazlığı yaratmasına etiraz edən Yuri Musaelyan nəticədə onların sifarişi ilə dəhşətli şəkildə döyülüb. Musaelyan dərhal sosial şəbəkə vasitəsi ilə başına gələn hadisəni ictimailəşdirib və bildirib ki, bundan sonra da geriyə çəkilmək fikrində deyil.

### Yuri Xankəndinin mərkəzi meydanında etiraz aksiyası keçirəcək

Onun sözlərinə görə, Azərbaycan ekofəallarının Laçın yolu üzərində keçirdikləri aksiya heç də yolun bağlanmasına səbəb olmayıb və hazırda ərzaq və s. gündəlik tələbat məhsulları Xankəndiyə istiqamətində daşınır. O cümlədən, ağır xəstələrin Ermənistana aparılmaları üçün də yol açıqdır. Bu baxımdan, separatçı rejimin qəsdən, süni şəkildə hay-küy qaldırmaları heç bir məntiqə sığmır.

Etirazçı Azərbaycan vətəndaşı Yuri Musaelyan canlı yayıma çıxaraq bildirib ki, hətta döyülməsinə rəğmən o geriyə doğru addım atmayacaq və separatçı-quldur rejiminə qarşı öz mübarizəsini sona qədər aparacaq. Hətta Xankəndinin mərkəzi meydanında etiraz aksiyası keçirəcək. O cümlədən, bu aksiyaya yerli fəalların da qoşulacağını deyən Musaelyan bəyan edib ki, həmin aksiyada Araik Arutyunyanın və qardaşının İkinci Qarabağ müharibəsində həlak olan insanların ailələrinə ayrılmış maliyyə yardımlarını, kompensasiyaları necə mənimsədikləri barədə əlində olan bütün faktları ictimailəşdirəcək.

### Azərbaycanın erməni vətəndaşı: "İctimai fəal olaraq atdığımız hər bir addım başda Araik olmaqla onun çetesinin çıxdaş edilməsinə gətirib-çıxarmalıdır"

Qarabağda yaşayan erməni vətəndaşı Araik Arutyunyanı, Ruben Vardanyanı və onun digər yandaşlarını talançı, sadə ermənilərin qənimləri adlandırıb və bildirib ki, artıq belə davam edə bilməz və onun ailəsinin, azyaşlı uşaqlarının yanında döydürülməsi faktı qırmızı xətti keçməkdir. "İctimai fəal olaraq atdığımız hər bir addım başda Araik olmaqla onun çetesinin çıxdaş edilməsinə gətirib-çıxarmalıdır. Bu quldur çete Qarabağın erməni sakinlərinin son damla qanını da içməyə hazırdır", deyə o bildirib.

Bu arada, daha bir məlumata görə Araik Arutyunyan və Ruben Vardanyan artan narazılıqlardan qorxduqları üçün Xankəndidə və ətrafında istənilən aksiyaların keçirilməsinə qadağa qoyublar. Lakin buna baxmayaraq, etirazçılar qərarlarını icra edəcəklərini və geriyə doğru addım atmayacaqlarını bildiriblər.

**Rövşən RƏSULOV**

# "Ermənilər ətraf mühitə ziyan vurulmasını dayandırmalıdır"



"Artıq 10-cu gündür ki, ekoaktivistlər, QHT nümayəndələri və ictimaiyyətin fəallarının Laçın yolunda keçirdiyi etiraz aksiyası davam edir. Təəssüf ki, hələ də aksiyaçıların tələbləri cavabsız qalmışdır. Amma fəallarımız tələblərə cavab tapılana qədər aksiyanın davam etdirilməsində israrlıdırlar". Bunu millət vəkili Azər Badamov "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, aksiyaçıların tələbləri heç də Qarabağda yaşayan ermənilərin humanitar problemlərlə üzləşdirmək deyil: "Əksinə humanitar problemlərinin həllinə çağırış, mineral resurslarımızın talan edilməsinə və ətraf mühitə ziyan vurulmasının dayandırılması və müvafiq dövlət orqanlarının yerində monitorinqin keçirilməsinə şərait yaradılması ilə bağlıdır. Aksiyaçıların tələbləri suverən ərazilərimizdə dövlət orqanlarının nümayəndələrinin hərəkətinə şərait yaradılması ilə bağlıdır. Qarabağda yaşayan ermənilər separatçıların girovluğundadırlar. Orda yaşayan dinc erməniləri vətəndaşlarımız hesab edirik və onlar separatçıların girovluğundan azad olunmalıdırlar. Müharibənin başa çatmasından iki ildən çox vaxt keçmişdir. Bu iki ildə işğaldan azad olunmuş ərazilərdə yenidən qurma və bərpa işləri aparılır. Qarabağın sülhməramlıların məsuliyyət zonasında olan ərazilərdə də etimad mühitinin yaradılması və azərbaycanlıların Xankəndinə və digər ərazilərə qayıtmağın zamanı gəlib çatmışdır. Hesab edirəm ki, Laçın yolunda aksiyalara davam etdirməklə lazımı məqsədlərə nail olacağıq. Əgər etirazlarımıza cavab verilməzsə Rusiyanın sülhməramlı missiyasından imtina edəcəyik və öz gücümüzlə həll olunmalı digər məsələləri yoluna qoyacağıq".

**Gülyana**

# Dövlətimizin idman siyasəti: qələbə və uğurlarımız

## Prezident İlham Əliyev: "Siz idmançılar bundan sonra, sizdən sonra gələn nəsillər həmişə müzəffər ölkəni təmsil edəcəksiniz"




Azərbaycan bugünki inkişafı ilə, siyasi, iqtisadi, hərbi, mədəni və s. istiqamətlər üzrə əldə etdiyi nəticələrə görə bölgədə və dünyada söz sahibi olan bir ölkəyə çevrilib. Bunun əldə olunmasında ümummilli lider Heydər Əliyev yolunun layiqli davamçısı Prezident İlham Əliyevin gərgin əməyi, yorulmadan çalışması, uzaqgörən xarici və daxili siyasəti dayanır. Müasir dünyada liderlik qabiliyyəti ilə seçilən Cənab Prezidentin ölkəyə rəhbərliyi dövründə Azərbaycan möhtəşəm inkişaf yoluna qədəm qoyub və əldə olunan uğurlarının təhlilinə nəzər salsaq görərik ki, Cənab İlham Əliyevin hər bir vədi əməli fəaliyyətində öz əksini tapıb. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. Sağlam bədəndə sağlam ruh olar, - deyiblər. Sağlamlıq xoşbəxt həyatın əsas şərti və təminatıdır. Əlbəttə ki, insan ruhunun sabitliyi, baş verən hadisələrə psixoloji baxımdan düzgün yanaşması fiziki sağlamlıq faktoru ilə sıx bağlıdır. Sağlamlıq ən böyük nemətlərdən olduğundan hər bir insan onu qorumağı bacarmalıdır. İdmanla məşğul olmaq insan sağlamlığının qorunmasında, ruh yüksəkliyinin artmasında müstəsnadır. Ölkəmizdə gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam yetişməsi dövlətimiz tərəfindən daim diqqət mərkəzində saxlanıldığından bu sahənin inkişafı istiqamətində mühüm qərarlar verilir və sənədlər imzalanır. Qeyd edək ki, bu gün Azərbaycanda Olimpiya Hərəkatı öz inkişaf dövrünü yaşayır. Dövlətin idmana olan qayğısı baxımından Azərbaycan dünyada öndə gedən ölkələr sırasındadır.

### YENİ VƏ MÜASİR İDMAN KOMPLEKSLƏRİNİN TİKİNTİSİNƏ BAŞLANILDI

Azərbaycanda keçirilən dünya və Avropa çempionatları sübut edir ki, həqiqətən də, Azərbaycanda idman sürətlə inkişaf edir. Ölkəmizin, ardıcıl olaraq beynəlxalq yarışlarda iştirakı və uğurlar qazanması beynəlxalq aləmin Azərbaycandakı idman hərəkatına olan diqqətini artırıb. Əlbəttə ki, müasir dövrümüzdə idman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində idmançılarımızın sorağı mötəbər yarışlardan qalib kimi eşidilir. Azərbaycanda Olimpiya Hərəkatının inkişafı Azərbaycan Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Belə ki, 30 il bundan əvvəl - 1992-ci ildə Milli Olimpiya Komitəsi fəaliyyət göstərməyə başladı. 1997-ci ildən Milli Olimpiya Komitəsinə Cənab İlham Əliyev Sədr seçiləndən sonra Azərbaycanda Olimpiya Hərəkatı vüsət almağa başladı. Bu illər ərzində Milli Olimpiya Komitəsinin təşkilati və quruculuq işləri bir an belə səngimədi. Azərbaycanın hər bir yerində yeni və müasir idman komplekslərinin tikintisinə başlanıldı. Azərbaycan Milli Olimpiya Komitəsi başqa Olimpiya komitələri üçün örnək oldu. 1998-ci ildə respublikamız ilk dəfə Qış Olimpiya Oyunlarına qatıldı. Yaponiyanın Naqano şəhərində keçirilən XVIII Qış Olimpiya Oyunlarında respublikamız 5 nəfər idmançı ilə dörd yarışda təmsil olundu. 2000-ci ildə Sidney Olimpiyadasında Azərbaycan idmançıları 2 qızıl, 1 bürünc medal qazandı. Azərbaycan komanda hesabına 199 ölkə arasında 34-cü, Avropa ölkələri arasında isə 23-cü oldu. Bu ölkənin Olimpiya hərəkatı tarixində ən böyük uğuru idi. 2002-ci ildə Azərbaycan ikinci dəfə Qış Olimpiya Oyunlarının iştirakçısı oldu. ABŞ-ın Soit Leyk siti şəhərində keçirilən bu oyunlarda idmançılarımız 3 yarışda iştirak etdilər. 2004-cü ilin avqustunda Afinada keçirilən Olimpiya Oyunlarında, idman tariximizdə ilk dəfə olaraq, 5 medal qazandı. Çində keçirilən Yeniyetmələrin Olimpiya Oyunlarında Azərbaycanın gənc atletləri beşi qızıl olmaqla 12 medal qazanaraq, 200-ə yaxın iştirakçı arasında 10-cu yeri tutmuşdur. Bütün bunlar Cənab İlham Əliyevin təşkilatçılıq fəaliyyətinin uğurlu nəticələridir. 2005-ci ildə Prezident İlham Əliyevin Sərəncamı ilə 5 mart tarixinin ölkəmizdə "Bədən tərbiyəsi və idman günü" olaraq təsis edilməsi bədən tərbiyəsi və idman ictimaiyyəti arasında yüksək əhval-ruhiyyəyə səbəb oldu. Bu günün seçilmə səbəbi də təsadüfi deyildi. Məhz 1995-ci il martın 5-də Ulu Öndər Heydər Əliyev ölkədə bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlini qoyaraq, dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşmüş, sağlam həyat tərzini və idmanın inkişaf tələblərini təmin etmək məqsədilə əsaslı vəsait ayıraraq, İdman Fondunu yaratmış və beləliklə, böyük uğurların təməli qoyulmuşdu.

### BU GÜN AZƏRBAYCAN BEYNƏLXALQ MİQYASLI TƏDBİRLƏRƏ EV SAHİBLİYİ EDİR

Respublikamızın artan potensialı nəticəsində son illər Azərbaycanda beynəlxalq miqyaslı tədbirlər, o cümlədən bir çox idman növləri üzrə dünya və Avropa çempionatları, dünya kuboku və Qran-Pri yarışları keçirilmişdir. Belə ki, Birinci Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, 42-ci Ümumdünya Şahmat Olimpiadasına, eləcə də Avropa, dünya çempionatlarına yüksək səviyyədə ev sahibliyi etmiş Azərbaycanda belə yarışların keçirilməsi onu göstərir ki, Azərbaycan dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutub. Ölkəmizin mötəbər idman yarışlarını keçirməsinin arxasında da, məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır.

İdman ölkəsi kimi tanınan ölkəmizdə müasir tələblərə cavab verən möhtəşəm idman qurğuları fəaliyyət göstərir. 2015-ci ildə istifadəyə verilən Bakı Olimpiya Stadionu 68 min tamaşaçı tutumuna malikdir. Beynəlxalq standartlara tam cavab verən stadionda müxtəlif funksiyalı tribunalar, qaçış zolağı və digər infrastruktur yaradılıb. Birinci Avropa Oyunlarının təntənəli açılış və bağlanış mərasimləri, eləcə də, atletika yarışları, məhz bu stadionda təşkil olunub. Bakı Tennis Akademiyası da Azərbaycanda bu tipdə inşa edilmiş ilk idman qurğusudur. İlin bütün fəsillərində yerli və beynəlxalq yarış və məşqlərin keçirilməsi üçün müasir tələblərə cavab verən istilik və havalandırma sistemi quraşdırılıb. Bakı Tennis Akademiyasının ərazisində idman hovuzu və məşq zalı da istifadəyə verilib. Bundan başqa 3 min tamaşaçı tutan mərkəzi universal stadion inşa olunub. Stadionda tennislə yanaşı, voleybol, mini-futbol, basketbol, həndbol, çimərlik voleybolu, güləş, boks və idmanın digər növləri üzrə ən mötəbər çempionatlar və turnirlər keçirmək mümkündür. Təşkilatçılıqla yanaşı, ölkələrin idman sahəsində qazandıqları nəticələr də çox vacib amillər sırasındadır. Sevindirici haldır ki, idmançılarımız həmişə onlara göstərilən etimadı doğruldublar. Azərbaycana 56 medal qazandıran Birinci Avropa Oyunları bir daha təsdiqlədi ki, ölkəmizdə perspektivli, güclü idmançılar nəsli yetişməkdədir. Azərbaycana "Bakı- 2017" İslam Həmrəyliyi Oyunlarının qalibi adını qazandıran amillər, bu sahədə qazanılan zəngin təcrübənin özünü doğrultduğunu göstərdi. MDB ölkələri zəhmətkeşlərinin beynəlxalq V İdman Oyunlarında Azərbaycan idmançıları 37 medal - 9 qızıl,12 gümüş və 16 bürünc medal qazandılar."Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bizim idman nəticələrimiz, uğurlarımız, qələbələrimiz, eyni zamanda, idmana dövlət tərəfindən göstərilən dəstək, dövlət proqramlarının icrası, əlbəttə ki, beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, beynəlxalq federasiyalar bizim fəaliyyətimizə çox yüksək qiymət verirlər", - Prezident İlham Əliyev bildirib.

Paytaxtımızda start götürmüş elit yarışmalarından olan "Formula-1"-ə ölkəmizin ev sahibliyi etməsi dünyanın idman arenalarında artıq özünə layiqli yer tutan Azərbaycanın iqtisadi gücünü, inkişafını, qonaqpərvərliyini, multikultural dəyərlərini bir daha dünyaya nümayiş etdirmiş oldu. Xatırladaq ki, "Formula-1" yarışları Bakıda 2016-cı ildən keçirilir. Bakının "Formula-1" kimi mühüm yarışı da yüksək səviyyədə təşkil etməsi bir daha Azərbaycanın idman dövləti olduğunu, bu missiyanın ölkəmizin timsalında hər zaman özünü doğrultduğunu təsdiqləmiş oldu. "Formula-1" yarışlarının Bakı mərhələsi dünyada böyük maraq yaradıb.

Bütün bunlar, Prezident İlham Əliyevin idmanın inkişafına və yetişməkdə olan gənc nəslə göstərdiyi xüsusi diqqət və qayğısının real və əyani təcəssümüdür. Azərbaycanın mötəbər idman yarışlarına müvəffəqiyyətlə ev sahibliyi etməsi də bu sahənin, eləcə də həmin idman növlərinin inkişafına, idmanın kütləviliyinin təmin olunmasına xidmət edir.

### "BİZ LƏYAQƏTLİ XALQI VƏ BÖYÜK HÖRMƏTƏ LAYİQ OLAN ÖLKƏNİ TƏMSİL EDİRİK"

Bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər mühiti formalaşıb. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Xalqımızın qəhrəmanlıq tarixini yazanlar da gənclərdir. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. 44 günlük Vətən müharibəsində gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. Azərbaycanın mərd oğulları şəhidlik zirvəsinə yüksəldilər. Bu torpağın qazisi oldular. Bu günün gənci bu məsuliyyəti dərk edir və sabaha doğru inamla addımlayır. Bu gün hər bir gəncin üzərində ciddi mənəvi məsuliyyət var. Azərbaycan əsgərinin qələbəsi əminliklə deməyə əsas verir ki, gənclər mütəşəkkil, vətənpərvər, geniş dünyagörüşlü və mübariz gənclərdir. "Biz uzun illər - 30 ilə yaxın beynəlxalq arenalarda, istər idman, istər siyasi arenalarda məğlub edilmiş ölkə kimi təmsil olunurduq"- deyə çıxışlarının birində bildirən Cənab Prezident qeyd edib ki, bunu etiraf etmək nə qədər ağırdırsa, o qədər də sadədir. Yəni, biz həqiqəti olduğu kimi bilməliyik və deməliyik: "Bəli, bu məğlubiyyətin səbəbləri var idi, o vaxtkı antimilli hakimiyyətin xəyanətkarlığı, ordunun olmaması, Ermənistana xarici dövlətlərin göstərdikləri yardımlar - bütün bunlar var idi. Məhz bu amillər məğlubiyyəti şərtləndirmişdir. Amma həqiqət o idi ki, torpaqlarımız işğal altında idi və biz sübut etməli idik ki, nəyin bahasına olursa-olsun torpaqlarımızı işğalçılardan azad edəcəyik və etdik. Bir daha demək istəyirəm, hesab edirəm ki, o cümlədən idman sahəsində əldə edilmiş uğurlar, bayrağımızın qaldırılması, himnimizin səsləndirilməsi vətənpərvərlik hisslərini daha da gücləndirirdi və hər birimizə bir daha göstərirdi ki, əgər biz idman yarışlarında düşməni təmsil edən idmançıları məğlub edə biliriksə, döyüş meydanında da mütləq qələbə qazanacağıq. "

***Nəzakət Ələddinqızı***

**Hər şeydən uzaqlaşmaq və bir az beynimizi dincəltmək zamanı gəldikdə ağlımıza ilk gələn şeylərdən biri gözəl bir oteldə sakit istirahətdir. Bəs, dincəlmək üçün ehtiyacımız olan bu otellər niyə belə bahadır? Azərbaycanda turizm hansı səviyyədə inkişaf edib? Otellərin doluluq səviyyəsi necədir? Ölkəmizdə turizm sahəsində hansı problemlər var?**

# Azərbaycanın turizm potensialına baxış



Müxtəlif standartlara uyğun imkanlar təklif edən milyonlarla otel, dünyanın hər yerində qonaqlarına ən yaxşı istirahət təqdim etmək üçün yarışır. Təbii ki, memarlıq detalları ilə fərq yaradan, dekorasiya üstünlüyü ilə saraylarla yarışan, texnoloji infrastrukturu ilə qonaqlarını təəccübləndirən, təbiətin bütün gözəlliklərini ortaya qoyan, qonaqlarını dünyanın ən önəmli insanları kimi hiss etdirən lüks və bahalı otellər ön sırada gəlir.

Verdikləri dəbdəbəli xidmətə görə astronomik qiymətlər tələb edən dünyanın ən bahalı otellərinin siyahısı da hər il yeni obyektlərin əlavə olunması ilə yenilənir və dəyişdirilir.

Qeyd edək ki, bir neçə gün öncə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 19-da paytaxtda "The Ritz-Carlton Baku" hotelinin açılışında iştirak ediblər. Dövlətimizin başçısı və birinci xanım hoteldə yaradılan şəraitlə tanış olublar.

Məlumat verildi ki, hündürlüyü 130 metr olan hotel binası 33 mərtəbəlidir. "The Ritz-Carlton, Baku" hotelində 190 geniş qonaq otaqları, lüks mənzillər, restoranlar, fitnes və biznes mərkəzləri, müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans zalı yaradılıb. Binanın 14 mərtəbəsi hotel otaqları üçün nəzərdə tutulub, 15-ci mərtəbədən başlayaraq yuxarı hissədə isə rezidensiyalar və mənzillər yerləşir.

Qeyd edildi ki, binada korporativ toplantıların və xüsusi günlərlə bağlı tədbirlərin təşkili üçün də ideal şərait yaradılıb. Buradakı "Şuşa" zalı işgüzar görüş və ya qala tədbirlərin keçirilməsi baxımından xüsusi məkandır. Bununla yanaşı, hoteldə Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin adlarını daşıyan 12 əlavə iclas otağı yaradılıb. Bunlar "Qarabağ", "Ağdam", "Cəbrayıl", "Qubadlı", "Tərtər", "Xocalı", "Füzuli", "Zəngilan", "Kəlbəcər", "Xankəndi", "Xocavənd" və "Laçın" otaqlarıdır.

Bildirildi ki, binanın daxili dizaynı Azərbaycanın iqliminin, mədəniyyətinin, tarixinin müxtəlifliyini və zənginliyi əks etdirir. Hotelin memarlığında Azərbaycana aid xüsusiyyətlərə - tarixin, incəsənətin, mədəniyyətin və müasir tendensiyaların vəhdətinə xüsusi diqqət yetirilib.

Qeyd edək ki, Azərbaycanda qeyri-neft sektorunun aparıcı sahəsi kimi turizmin inkişafı başlıca prioritetlərdəndir. Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ni bu sahəyə dövlət tərəfindən göstərilən diqqətin əyani təsdiqidir. Dövlətimizin başçısının müəyyənləşdirdiyi uzaqgörən siyasət sayəsində Azərbaycanda müasir hotel infrastrukturunun yaradılmasına hələ uzun illər bundan əvvəl başlanılıb. Pandemiyanın yayıldığı 2020-ci ilədək hər il çox sayda turist ölkəmizə səfər edib, müasir turizm imkanlarından yararlanıb. Artıq dünyada olduğu kimi, ölkəmizdə də postpandemiya dövrü yaşanır. Bu isə öz növbəsində turist axınının artması ilə müşayiət olunur. Bu cür müasir və dünyaca məşhur hotel brendlərinin Azərbaycanda fəaliyyətə başlaması şübhəsiz ki, postpandemiya dövründə turizmin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir.

SİA ölkəmizdə otel turizminin inkişafı ilə bağlı araşdırma aparıb.

Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının İdarə heyətinin sədr müavini Əhməd Qurbanov: "Bildiyimiz kimi 2020-ci ildə pandemiya başladı və pandemiyanın ölkədə ən çox mənfi təsir etdiyi sferalardan biri təbii ki, turizm sahəsi oldu. Həmin dövrdə turizm dayanma nöqtəsinə gəlib çatmışdı.









2021-ci ildə, yeni müəyyən dərəcədə qadağaların ləğvindən sonra turistlər ölkəmizə gəldi. 2022-ci ildə biz artıq müşahidə etdik ki, turizmin inkişafı artan templə gedir və ölkəyə turist sayında 2021-ci illə nisbətdə kifayət qədər artım müşahidə olunur. Bu baxımdan mən düşünürəm ki, hal-hazırda ölkəmizdə turizmin inkişafı çox müsbətə doğru irəliləyir və turistlərin sayı artır.

Bununla yanaşı, biz yeni otellərin açılışlarını görürük. Cənab Prezident də bu yaxınlarda bir otelin açılışını etdi. Bilirik ki, bu otel dünyada bir nömrəli brend otellərdəndir və yüksək standartlara uyğundur. Bu tip otellərin sayının ölkəmizdə artması turizmin inkişafına işarədir və bizim otellərin sayı nə qədər çox çoxalarsa, bir o qədər də rəqabət qabiliyyətliliyi ilə ölkədə turizmin inkişafı gedər. Müəyyən dərəcədə də stabilləşməni biz görə bilərik.

Hal-hazırda inkişaf yaxşı gedir və həm regionlarda, həm paytaxtdakı otellərin doluluq səviyyəsinə baxsaq görərik ki, kifayət qədər yüksəkdir. Həftə regionlarda həftə sonları doluluq sayı 90 faiz civarında olur ki, bu da otelin tam dolmasına işarədir.





Yeni turistlərin də ölkəyə axınını görürük. Ölkəmizə müxtəlif ölkələrdən turistlər gəlir. Ərəb ölkələrindən gələn turistlərin sayı artıq 17 dəfə artmışdır, Hindistandan, Pakistandan, Avropadan və digər ölkələrdən ölkəmizə turistlərin gəlməsini müşahidə edirik. Bu hamısı inkişafa işarədir və biz gələn il artıq yeni turizm bazarlarından ölkəyə turistlərin cəlbi ilə bağlı proqnozlar verə bilərik. Düşünürük ki 2023-cü ildə rəqəmlər 2022-ci ili də üstələyəcək və artıq ölkəmizə müxtəlif bazarlarda müxtəlif seqmentlərdən olan turistləri cəlb edə bilərik.

Bütün bunlar yeni turizm növlərinin tətbiqi ilə də müşahidə olunur. Hal-hazırda qış fəslidir və qış sezonunun ən pik vaxtlarından biridir və qarşıdan da yeni il gəlir. Yeni il ərəfəsində də qeyri-iş günlərini, tətil günlərini nəzərə alsaq, xaricdən gələn turistlərin sayında yenə də artım müşahidə edəcəyik, həm vətəndaşlarımız yerli turistlərimiz regionlarda və xarici ölkələrə səfər edəcəklər.

Ümumiyyətlə, sevindirici hal odur ki artıq vətəndaşlarımız xarici ölkələrdən çox yerli otellərimizdə, yəni regionlarımızda istirahəti üstün tuturlar. Yəni otellər və istirahət zonalarında müəyyən boşluqlar var idi ki, onlar da yavaş-yavaş aradan qaldırılır, qiymət siyasətinə düzəlişlər edilir. Bu da inkişafa gətirib çıxarır. Regionlarda otellərin sayının artması da buna işarədir ki, vətəndaşlarımız daha çox regionlarımızda istirahət etməyə üstünlük verirlər.

Azərbaycanın turizm potensialı təbii ki, tükənməzdir və bu baxımdan da yerli turistlərimiz Azərbaycanda istirahəti üstün tuturlar. Problemsiz sahə olmadığı kimi turizmdə də müəyyən çətinliklər var. Hal-hazırda otellərin sayının artırılmasına çalışırıq və qiymətlərin yalnız bundan sonra daha da yaxşı tənzimlənəcəyini görürük. Otellərin sayı nə qədər çox olarsa həm regionlarda, həm paytaxtda artıq hər bir turist öz büdcəsinə uyğun oteli seçərək orada rahat şəkildə istirahət edə bilər. Yeni ölkəmizdə kifayət qədər otellər var. Amma beşulduzlu otellərdən kənar, dörd ulduzlu, üç ulduzlu, iki ulduzlu otellərin sayını artırmalıyıq. Yeni qonaq evləri və hostellərin sayını artırmalıyıq ki, həm xaricdən gələn turistlər öz büdcələrinə uyğun otellərdə qala bilsinlər, həm də ki, yerli turistlərimiz, vətəndaşlarımız istədikləri büdcəyə uyğun otelləri tapa bilsinlər

Məlum olduğu üzrə insanların ən çox istirahətə yollandığı fəsil yaydır. Yaydan sonra insanlar işə başlayır və müəyyən dərəcədə başları öz işlərinə qarışır. Qış sezonunda da növbəti istirahət planlaşdırılır.

Qış fəsli, eyni zamanda, Yeni İl bayramına təsadüf etdiyi üçün, əsasən, insanlar bu zaman istirahətə üstünlük verirlər: "Həm də Yeni İldə daha çox qeyri-iş günlərinin olmasını nəzərə alsaq, həmin bu ərəfəyə istirahətlərini təyin edirlər ki, daha rahat şəkildə dincəlsinlər.

Hal-hazırdakı vəziyyətdə görürük ki, koronavirus pandemiyasından sonra insanlar artıq daxili turizmdən istifadə etməyə üstünlük verirlər. Daha çox bölgələrə üz tuturlar və həftəsonları bölgələrdəki otellərin doluluq səviyyəsinə nəzər saldıqda müşahidə edirik ki, bu, maksimum həddədir. Həftəiçi vaxtlarda da 50-60 faiz səviyyəsində doluluq müşahidə edirik. Bu, onu deməyə əsas verir ki, vətəndaşlarımızın bir çoxu bölgələrimizdən razı şəkildə istirahət edirlər. Bu da sevindirici bir haldır ki, bölgələrimizi daha yaxşı tanıyırlar.

Bundan əlavə biz xarici ölkələri də nəzərə alsaq görərik ki, insanlar qışda 2 qrupa bölünür. Bir qrup insan dağ-xizək turizmini sevirlər və bunun üçün soyuq ölkələrə üz tuturlar. Bir qrup insanlar da daha çox ölkəmizdə soyuq olduğu üçün isti bölgələrə üz tuturlar. İsti bölgələr dedikdə, Dubay, Misir və Birləşmiş Ərəb Əmirlikləri nəzərdə tutulur.

Bundan əlavə Avropaya da üz tuturlar. Buranın bir çox ölkələrinə gediş-gəliş mümkündür. Daha çox səfər Monteneqroyadır. Son zamanlar bura üstünlük verilir.

Təbii ki, qardaş Türkiyə də vətəndaşlarımızın sevimli turizm məkanlarından biridir və hər zaman bu istiqamətə gediş olur. Bütün bunları nəzərə alsaq, vətəndaşlarımızın bir hissəsi xaricdə, daha çox hissəsi isə bölgələrimizdə istirahət etməyə üstünlük verir. Hal-hazırda da tur paketlərinin satışı davam edir. Dekabr ayı müddətində Şahdağ və Tufandağ kimi qış turizm komplekslərinə gedişlərin sayı çoxdur".

***Ayşən Vəli***

ANALİTİK + ŞƏRH

# İranlı ruhani Xameneyiyə edam cəzası kəsdi!

## Arəş Hünəvər Suçayi: "Kim insanların qanını axıdırsa, günahkardır və Allah qarşısında cavab verməlidir"

**Tehran rejiminin öz xalqına qarşı amansız rəftarları və divan tutması get-gedə artır. Öz azadlıq haqları uğrunda küçələrə çıxaraq etiraz edən ölkə vətəndaşları təqiblərə, təhdidlərə və kütləvi edamlara məruz qalmaları ilə yanaşı, zamanında bu rejim daxilində fəaliyyət göstərən ayrı-ayrı din xadimləri və nüfuzlu elm adamları da baş verən dəhşətli olaylardan doğru nəticə çıxarmağa başlayıblar. Onlardan biri də ruhani Arəş Hünəvər Suçayidir.**

Etirazçı ruhani: ”Seyid Əli Xameneyini törətdiyi saysız cinayətlər, İranda tökdüyü qanlar və İslamın, İranın və insanın ən böyük düşməni olaraq onları təhqir etdiyinə və repressiyalar həyata keçirdiyinə görə yer üzündə fəsad törədən və qanının axıdılmasına icazə verilən hesab edirəm və edam olunmasına hökm edirəm”

O, sosial şəbəkə vasitəsilə öz etirazını bildirib və deyib: ”Allahın adı ilə! Mən Arəş Hünərvər Şucayi 20 il elmi-dini hövzədə fəaliyyət göstərmişəm və hüquq təhsili almışam. Həmin fiqh və hüquq prinsiplərinə uyğun olaraq İran xalqı qarşısında və Quran, insan və İran məhkəməsində İslam Respublikasının rəhbəri Seyid Əli Xameneyini törətdiyi saysız cinayətlər, İranda tökdüyü qanlar və İslamın, İranın və insanın ən böyük düşməni olaraq onları təhqir etdiyinə və repressiyalar həyata keçirdiyinə görə yer üzündə fəsad törədən və qanının axıdılmasına icazə verilən hesab edirəm və edam olunmasına hökm edirəm. Kim insanların qanını axıdırsa, günahkardır və Allah qarşısında cavab verməlidir. Bu hökmün icra edilməsi ümidi ilə! Bu, hökmün mətni idi, təfsirə uyğun istinadlarını da tezliklə açıqlayacağam”.














### Bu, ilk haldır ki, bir şiə ruhanisi İslam Respublikasının rəhbərinin ”yer üzündə fəsad törədən” və ”qanı halal” olduğunu elan edir

Təkcə bu faktı araşdırarkən həm də belə nəticə hasil etmək olar ki, həqiqətən də İran xalqının çoxu başına gələn bütün bədbəxtliklərin, qətllərin və repressiyaların əsas səbəbkarı kimi Xameneyini görür və onun cəzalandırılmasını tələb edir.

Etirazlarda əhali ”Xameneyiyə ölüm olsun” şüarı ilə çıxış edir və onun ”torpağa gömüləcəyini” bildirilər. Amma bu, ilk haldır ki, bir şiə ruhanisi İslam Respublikasının rəhbərinin ”yer üzündə fəsad törədən” və ”qanı halal” olduğunu elan edir. Bu, həm də haqqın, ədalətin haqsızlıq və ədalətsizlik üzərində zəfəri kimi də qiymətləndirilə bilər. Çünki yüzlərlə insanları - gəncləri, qadınları, yaşlıları, hətta azyaşlıları və yeniyetmələri qətlə yetirən rejim sərbazları get-gedə daha da azğınlaşırlar, qana susayırlar. O cümlədən, etirazlar artan bir zamanda məhz Tehran rejiminin ali dini lideri Xameneyi, ona və iqtidarına qarşı çıxanlarla bağlı fətva verərək bildirib ki, öldürülən hər bir etirazçının qanı halaldır...

### ABŞ-ın Şimali Karolina York Universitetinin professoru Mohsen Kədivər: ”Bu gün biz məzhəb donuna bürünmüş dini despotizmlə qarşı-qarşıyayıq”

ABŞ-ın Şimali Karolina York Universitetinin professoru Mohsen Kədivər sözügedən məsələ ilə bağlı bildirib ki, əgər İranda hüquq dövləti olsaydı, deputatlar xalqın həqiqi vəkilləri olsaydılar, məhkəmə müstəqil fəaliyyət göstərsəydi, konstitusion öhdəliklər yerinə yetirilmiş olardı: ”Amma, bu gün biz məzhəb donuna bürünmüş dini despotizmlə qarşı-qarşıyayıq və bir nəfər dünya müsəlmanlarının rəhbərliyinə iddialıdır, həm də mütləq vilayəti-fəqihlik iddiasındadır. Belə olduqda, bütün məsuliyyətlər həmin şəxsin, İslam Respublikası rəhbərinin üzərinə düşür”.

İslam Respublikası rejimini sərt şəkildə tənqid edən Ayətullah Müntəzirinin tələbələrindən biri olan Mohsen Kədivər onu da deyir ki, ona çatan məlumata görə, Xameneyi hökumət rəsmiləri ilə görüşdə etirazçıların edam edilməsi əmrini verib və ona görə, edamlar birbaşa onun göstərişi ilə həyata keçirilir.

### ”Edamların bir çoxu Xameneyinin əmri ilə baş tutub”

Kədivər qeyd edib: ”Bildiyimə görə, etirazçılara qarşı zorakılığa məhkəmə, ədliyyə, Ali Milli Təhlükəsizlik Şurası və Məsləhət Şurası tərəfindən ciddi narazılıqlar edilməsinə baxmayaraq Xameneyi məhkəməyə təzyiq edib, iğtişaşçı adlandırdığı etirazçıları edam etməyə məcbur edib və əslində edamların bir çoxu Xameneyinin əmri ilə baş tutub. Prezident, Məhkəmə Sisteminin rəhbəri və baş prokuror öz çıxışında Xameneyinin mövqeyini müdafiə ediblər”.

Kədivərə görə, şübhəsiz ki, edamlarda şəxsən Xameneyinin əli var amma bu, Ali Məhkəmənin sədri, baş prokuror və hökmü yerinə yetirənlərin məsuliyyət daşımaması anlamına gəlmir. Onların hamısı etirazçıları edam etməklə şəriətə və hüquqa zidd əməldə şərikdirlər.

Onu da qeyd edək ki, Xameneyinin xalqa qarşı təzyiqi və ölüm hökmlərinin icrası ilə verdiyi əmri rejimin Məhkəmə Sisteminin başçısı Qulamhüseyn Ejeinin çıxışında da özünü büruzə verib. ”Çıxarılan yekun hökmləri heç cür təxirə salmaq olmaz. Verilən hökmü hər hansı sahədə təcili olaraq yerinə yetirmək lazımdır!”, deyə o bildirib.

Beləliklə, Tehran rejimi özünün ən son silahını - xalqa qarşı ölüm hökmlərinin çıxarılması və edamların artırılması ilə istifadə etməyə başlayıb. Söz yox ki, öz azadlıqlarını və hüquqlarını bərpa etməq məqsədi ilə küçələrə çıxan xalq bu qərarlardan daha da hiddətlənərək öz mübarizələrini son ana qədər davam etdirəcəklər.

***Rövşən RƏSULOV***

# ƏSRƏ BƏRABƏR 19 İL

*Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan əsrə bərabər inkişaf yolunda*

Görkəmli dövlət xadimi, yeni əsrin yeni Lideri olan İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən 19 il keçir. 2003-cü il oktyabrın 15-də ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyev xalqımızın etimadını qazanaraq Azərbaycan Prezidenti seçildi və bununla da ölkəmizin inkişafında yeni bir mərhələ başlandı. 1993-cü ildə Heydər Əliyev siyasi rəhbərliyə qayıdandan sonra müstəqilliyini itirmək, parçalanmaq təhlükəsindən xilas olan Azərbaycan inkişaf yoluna çıxdı. Ümummilli Liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə onun layiqli varisi İlham Əliyevi dəstəkləyərək 76,8 faiz səslə onu özünə yeni Prezident seçdi. Prezident İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verdi. Xalqın öz liderinə inam və etimadı görülməmiş dərəcədə artdı. Məhz buna görə də 2008-ci, 2013-cü və 2018-ci illərdə keçirilən prezident seçkilərində də İlham Əliyev yenidən inamlı qələbə qazandı.



**MUXTAR NAĞIYEV,**
**YAP Səbail rayon təşkilatının sədri**



### İLHAM ƏLİYEV - YENİ YÜZİLLİYİMİZİN LİDERİ

Ən əsası isə, ötən əsrlərdə itirə-itirə gəldiyimiz ərazilərimizi birləşdirmək, bütövləşdirmək... - bu çətin və şərəfli missiyanı Tanrı məhz ona verdi, onu seçdi - Yeni əsrin Lideri Prezident İlham Əliyevi. 19 il öncə - 2003-cü ilin 31 oktyabrında əlini Konstitusiyaya və müqəddəs Qurani-Şərifə qoyaraq and içən İlham Əliyev çıxışında demişdi: "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir". O vaxt çoxları inanmırdı ki, ali kürsüdən and içən yeni Prezident "torpaqlarımızı nəyin bahasına olursa-olsun, azad edəcəyik" deyəndə təkcə gələcəklə bağlı vəd vermirdi, əslində böyük bir missiyanı öz üzərinə götürdüyünü bəyan edirdi... Bəli, Prezident İlham Əliyev Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, xalqın 30 illik həsrətinə son qoyan xilaskar liderdir. Çünki məhz İlham Əliyevin Sərkərdəliyi ilə çoxlarının qeyri-mümkün hesab etdiyi Qarabağ münaqişəsi cəmi 44 günə həll olundu. Azərbaycan Prezidenti İlham Əliyevin "Dəmir Yumruq" siyasətinə əməl edən Güclü Ordumuzun igid əsgər və zabitlərinin rəşadəti ilə uzun illər dünya dövlətlərinin əksəriyyətinin himayə etdiyi işğalçı Ermənistanı diz çökdürdü. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev noyabrın 10-da xalqa tarixi bir müraciət etdi. O, bir daha vurğuladı ki, xalqımız mənə inanırdı, ona görə də dəfələrlə demişdim ki, nəyi necə və nə vaxt eləməyin məqamını mən yaxşı bilirəm. Xalqın bu inamına arxalanaraq Ali Baş Komandan kimi ölkə başçısı İlham Əliyev həmin günün gəlib çatdığını bəyan etdi və möhtəşəm qələbəmizin əsas memarı kimi tarix yazdı. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin tükənməz enerjisi, qətiyyəti, möhkəm iradəsi Azərbaycan xalqının iradəsinin, arzu və istəklərinin reallaşdırılmasına zəmin yaratdı.

Bəli, bu Zəfər Ali Baş Komandanımız, Prezident İlham Əliyevin 19 illik müstəqil, qətiyyətli, prinsipial siyasətin bariz təcəssümüdür. Məhz cənab İlham Əliyevin siyasi iradəsi, düşünülmüş və hərtərəfli təhlildən keçmiş siyasi strategiyası, sərkərdəlik məharəti sayəsində Azərbaycanın bütün ərazisində suveren hüquqlarımız bərpa edildi, qalib dövlətə çevrildik, müzəffər xalq olduq, ölkəmiz bütün dünyaya yeni imicdə göründü, beynəlxalq aləm Azərbaycanı qüdrətli dövlət kimi yenidən kəşf etdi. Bu şanlı Zəfərlə cənab İlham Əliyev hər bir azərbaycanlının qəlbində əbədi heykəlini ucaltdı və bir daha alternativsiz Lider olduğunu təsdiqlədi.Göründüyü kimi, zaman keçdikcə Ulu Öndərin bütün dedikləri Prezident İlham Əliyevin fəaliyyətində öz təsdiqini tapdı. Hətta bu fikirlərə bir söz də əlavə olundu - qalib Sərkərdə! Prezident İlham Əliyev qalib Sərkərdə kimi adını Azərbaycan tarixinə qızıl hərflərlə yazdırdı.

### ƏSRƏ BƏRABƏR 19 İLİN ZİRVƏSİNDƏ - TARİXİ ƏDALƏTİN BƏRPASI, ŞUŞA BƏYANNAMƏSİ VƏ YENİDƏN QURULAN QARABAĞ

Bir sözlə, Qarabağı "Dəmir yumruq"la azad edən Ali Baş Komandan regionda yeni reallıqlar yaratdı və proseslər göstərdi ki, artıq diktəni cənab İlham Əliyev edir. Xüsusilə də, Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin miqyası onilliklərə bərabərdir. Ən mühüm məqam isə, Vətən müharibəsinin başa çatmasından 6 gün sonra - noyabrın 16-da Ali Baş Komandan qalib Sərkərdə kimi Qarabağa səfər etməsi oldu. Və savaş dövründə Azərbaycanın qəhrəman oğullarının döyüşə-döyüşə Şuşaya qədər getdikləri cığırları "Zəfər yolu" adlandırdı. Eyni zamanda, əsrə bərabər 19 ilin zirvəsində ən yadda qalan Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoydu, "Zəfər yolu" ilə Şuşaya qalib Sərkərdə kimi ayaq basdı və qədim qalamızdan dünyaya sülh mesajı verdi.Həmçinin, mədəniyyət paytaxtımız olan Şuşa şəhərində iki qardaş ölkənin liderlərinin - cənab İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan Şuşa Bəyannaməsi imzaladılar. Dövlət başçımızın söylədiyi kimi: "Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir "dəmir yumruq" yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim "dəmir yumruğ"umuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu "dəmir yumruq" düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın "dəmir yumruğ"u onların belini qıracaq. Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Bizim azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq."Bir sözlə, ötən 19 ildə Azərbaycan xalqı həmişə öz liderinə güvənib və inanıb, ona arxa və dayaq olub. Prezidentimiz həmişə böyük fəxrlə deyir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Bu qarşılıqlı inam sayəsində Prezident İlham Əliyev xalqı bundan sonra da öz arxasınca zirvədən-zirvəyə, qələbədən-qələbəyə aparacaq.

## "Beynəlxalq qurumlar ermənilərin çığır-bağırının təsiri altına düşüb"

"Şuşa-Xankəndi yolunda artıq 11 gündür davam edən dinc aksiyada irəli sürülən tələblər beynəlxalq hüquq normalarına tamamilə uyğun bir aksiyadır. Ermənistan və Qarabağdakı separatçı qurum tərəfindən bu aksiya haqqında beynəlxalq ictimaiyyətdə və bəzi beynəlxalq qurumlarda yanlış təsəvvür yaratmağa cəhdlər olunsa da, aksiya 11 gün ərzində tamamilə haqlı tələblərlə davam edir". "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, aksiyanın nə qədər davam edəcəyinə gəlincə, bu barədə proqnoz vermək çətindir: "Bunun cavabı erməni tərəfin və sülhməramlı adı altında regionda destruktiv fəaliyyət göstərən Rusiya silahlı dəstəsindən asılıdır. Aksiyaçıların beynəlxalq hüquq normalarına uyğun, indiki dünyanın narahat olduğu ekoloji problemlə bağlı olmasını nəzərə alıb qarşı tərəfin bu tələblərə adekvat reaksiya verməlari mütləqdir. Nə qədər cavab olmayacaqsa, nə qədər bu haqlı tələblərə qeyri-ciddi münasibət bəsləniləcəksə, o qədər də aksiya davam edəcək. Təəssüf ki, bəzi beynəlxalq qurumlar erməni tərəfin çığır-bağırının təsiri altına düşüb aksiyanın mahiyyətinə uyğun olmayan münasibət bildirirlər. Avropa Məhkəməsinin dünənki məlum mövqeyi də bu sıradandır. Yolun aksiyaçıların deyil, sülhməramlı adlanan qüvvələrin tərəfindən bağlanmasına rəğmən, məhz aksiyaçılara yolu açmaq barədə müraciət edilməsi onu deməyə əsas verir ki, özlərini ədalət keşikçisi hesab edən bu qurumların da ədaləti öyrənmək və bərpasına yardımçı olmaq istəkləri yoxdur. Nə qədər belə yanlış yanaşma davam edəcəksə, erməni tərəf də o qədər haqqa qayıtmağa çalışmayacaq. Belə olan təqdirdə isə aksiyanın hələ uzun müddət davam edəcəyini düşünmək olar".



***Gülyana***

# Bahalaşma gözləniləndir YENİ İL ƏRƏFƏSİNDƏ

**Bayramlar ərəfəsində, xüsusən də hər ilin sonunda, yeni ilin astanasında qiymətlərin, ələlxüsus ərzaq məhsullarının qiymətlərinin bahalaşdığının şahidi oluruq. Bu, bir növ ənənə halını alıb və nəzərə alsaq ki, həmin dövrdə ərzaq məhsullarına olan tələbatın artması müşahidə olunur, deməli, cari ildə də yeni il ərəfəsində bahalaşma gözləniləndir və artıq bunun şahidi olmaqdayıq.**





Təchizat zəncirində qırılmalar ümumilikdə bütün dünyada ərzaq məhsullarının qiymətlərinin artımına gətirib çıxarıb ki, bunun ölkəmizə də təsiri qaçılmazdır. Dünya iqtisadiyyatı çətin durumda olduğu, tənəzzüllə üz-üzə qaldığı zaman müşahidə olunan proseslər Azərbaycana da təsirsiz ötüşə bilməz və biz bu təsirləri görürük. Azərbaycanda il ərzində 13,8 faiz inflyasiya qeydə alınıb. Deməli, dünyada müşahidə edilən inflyasiya Azərbaycana da öz təzyiqlərini artırıb və bu təzyiqlərin təsirini hər birimiz hiss etməkdəyik. Yeri gəlmişkən, qeyd etmək yerinə düşərdi ki, ölkəmizdə qeydə alınan inflyasiyanın 60 faizi məhz ərzaq inflyasiyasının payına düşüb və bu, heç də təsadüfi deyil.

Ölkəmizdə istehlak qiymətləri indeksinin bu ilin oktyabr ayının sonuna olan nəticələrə əsasən, keçən ilin müvafiq dövrü ilə müqayisədə 14 faiz təşkil etdiyi müəyyən edilib. Ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə bu rəqəmin daha çox olması, daha dəqiq desək, 20 faiz təşkil etməsi də qeydə alınıb. Məsələ burasındadır ki, qeyri-ərzaq və əhaliyə göstərilən ödənişli xidmətlər sferasında bir qədər aşağı faiz, müvafiq olaraq 8 faiz və 11 faiz müəyyən olunub. Bütün bu rəqəmlər isə onu deməyə əsas verir ki, cari il həqiqətən də bahalaşma ili olaraq yadda qalır. Amma nəzərə almaq lazımdır ki, bu bahalaşmaya ən əsas, ən təsirli səbəb məhz qlobal tendensiya hesab olunur.

Bilirik ki, qeyd olunan qlobal məsələlərlə yanaşı bayramlar öncəsi, ələlxüsus yeni il ərəfəsi məhsulların, daha çox da ərzaq məhsullarının bahalaşmasına öyrəncəliyik. Hər bir bayram süfrəsinin hazırlanması üçün ərzaq məhsullarının istehlakında artım nəzərə çarpacaq dərəcədə diqqəti cəlb edir. Yeni il süfrəsinin hazırlanması zamanı, yəni ilin sonunda da eyni tendensiya nəzərə çarpır, özü də bir az da artıq. Bir sözlə, ərzaq məhsullarına olan tələbin artması ilə ən çox məhz yeni il ərəfəsində qarşılaşırıq. Bu isə o deməkdir ki, yeni il astanasında tələb təklifi bazarda üstələyir. Yəni, tələb bazarı olduğunu hamımız görürük və bu zaman qiymətlərin artımına hətta adi hal kimi baxırıq. Çünki hamımız bilirik ki, tələb bazarında, yəni, tələb təklifi üstələyən zaman qiymət artımı qaçılmazdır.

Yeni il astanasında, bayram öncəsi əhalinin istehlak mallarına, ələlxüsus ərzaq məhsullarına olan tələbatını qarşılamaq üçün yarmarkalar da təşkil olunur. Bunu da etiraf etmək lazımdır. Etiraf etmək lazımdır ki, bu yarmarkalar ilk növbədə məhsul bolluğu üçün nəzərdə tutulmaqla yanaşı, həm də qiymət artımının qarşısının alınması na hesablanıb. Məsələ burasındadır ki, yarmarkalar belə qiymət artımının tamamilə qarşısını ala bilmir, çünki məhsul bolluğu yaradılsa belə bu ərəfədən istifadə edən, yararlananlar da tapılır. Bir sözlə, süni şəkildə qiymət artımını da müşahidə edirik və bəzi işbazların belə bu zaman fasiləsindən məharətlə istifadə etmək niyyətlərini də ən azından görürük, amma bu niyyətlərinin qarşısı mümkün qədər alınır və yarmarkaların təşkilində bir məqsəd də məhz bundan ibarətdir.



Artıq bir müddətdir ki, qiymət artımı daha çox ərzaq məhsullarında müşahidə edilir. Məsələn, düyünün, ətin, yağın qiymətində artımlar hər il olduğu kimi, bu il də bayram qabağı diqqəti cəlb edir. Yəni, hər ilki tendensiya bu il də davam edir və hələ bundan sonra bir az da bahalaşacağını təkzib etmək mümkün deyil. Çünki bahalaşma üçün yeni il ərəfəsi də bir növ fürsət hesab olunur. Bəzən ərzaq məhsulları bayram gününə bir-iki gün qalmış bazarlara gətirilir və qeyd etdiyimiz kimi, işbazlar bu vəziyyətdən məharətlə istifadə etməyə çalışırlar. Bu baxımdan bayram öncəsi ərzaq məhsullarının tədarükünə, bazarların həmin məhsullarla yetərincə təmin olunmasına xüsusi diqqət tələb olunur. Qeyd olunduğu kimi, düzdür, bu məqsədlə hər yeni il öncəsi, hər bayram qabağı yarmarkalar təşkil olunur və həmin yarmarkalarda tələbatı ödəyəcək məhsulların, ələlxüsus ərzaq məhsullarının bolluğuna çalışılır, amma bu yarmarkalarda məhsulların kifayət qədər, tələbatı ödəyəcək qədər olub-olmadığı nəzarətdə saxlanılmalıdır ki, barəsində qeyd etdiyimiz hallar, nəticə də süni qiymət artımı olmasın.





Bilirik ki, adət-ənənələrimizə uyğun olaraq hər bir bayramda süfrələrimizi daha geniş çeşiddə ərzaq məhsulları, daha çox çeşiddə yeməklər bəzəyir. Milli mətbəxi olduqca zəngin olan Azərbaycan xalqının bayram süfrəsini də zəngin etdiyi hamıya bəllidir. Ölkəmizdə qonaq olan hər bir əcnəbinin Azərbaycan mətbəxinin, süfrələrimizin necə zəngin olması barədə təəssüratları barədə də eşidənlər az deyil. Xüsusən də bayram süfrələrimizdə ət və ət məhsullarının, xüsusən quş ətinin, balıq məhsullarının, eyni zamanda süd məhsullarının, meyvə və tərəvəzlərin olması bir növ adət halını alıb. Deməli, hər bir ailə bayram süfrəsini düzəltmək məqsədilə məhz bayram öncəsi bu məhsulları almaq üçün bazarlara üz tutur. Yəni, bazara demək olar ki, hər kəs yollanır. Bu isə o deməkdir ki, tələbin təklifi üstələmək riski artır. Bu riski görən işbazlar çox ciddi cəhdlə fürsətdən yararlanmağa çalışırlar və onların bu cəhdləri, əlbəttə ki, nəticədə qiymət artımına səbəb ola bilir.

Bütün bu qeyd olunanlarla yanaşı, onu da diqqətə çatdırmaq yerinə düşərdi ki, məhz ət və ət məhsullarına, xüsusən quş ətinə, balıq məhsullarına, süd və süd məhsullarına tələbatın daha çox olması fonunda artıq bazarlar həmin məhsullarla təmin olunub. Bunun elə bazarda olduğumuz zaman da şahidi oluruq və bu heç də təsadüfi deyil. Sevindirici haldır ki, ölkəmizdə heyvandarlığın, quşçuluğun inkişafı, süni su hövzələrində balıqçılıq təsərrüfatlarının yaradılması sayəsində həmin məhsulların bolluğu üçün heç bir əngəl yoxdur. Bazarlar həmin məhsullarla daxili istehsal hesabına təmin olunur. Əks halda həmin məhsullar xarici ölkələrdən idxal olunardı və həmin məhsulların qiyməti də dəfələrlə artıq olardı. Məhz daxili istehsal hesabına bazarların ərzaq məhsulları ilə təmin edilməsi bunun qarşısını alır deməkdə hər kəs haqlıdır. Düzdür, müəyyən qədər artımlar var, amma əgər məhsullar daxili istehsaldan deyil, idxaldan asılı olsaydı bu artımlar müqaisəyə belə gəlməzdi. Deməli, ölkə daxilində istehsal olunan məhsullarla bazarların təmin olunması hər zaman, xüsusilə bayramlar, ən çox da yeni il öncəsi öz aktuallığını qoruyur və bu baxımdan daxili istehsala üstünlük verilməlidir.

Bayram süfrəsini, yeni il süfrəsini bəzəyən təkcə milli mətbəximizin ləziz yeməkləri deyil. Süfrələrimizi meyvə və tərəvəzlər də bəzəyir. Deməli, meyvə və tərəvəzə olan tələbat da artır. Bu baxımdan bayram öncəsi meyvələrin, tərəvəzin qiymətində də artıma artıq öyrəşməyimiz başadüşüləndir. Yenə də bu artımları artıq görürük. Amma, qeyd olunduğu kimi, meyvə və tərəvəzin də idxaldan asılılığını minimuma endirmək lazım gəlir ki, bahalaşmanın qarşısını almaq olsun. Əgər meyvə-tərəvəz ölkəmizə idxal olunmuş olsa, bu zaman onları idxal edənlər süni qiymət artımına yol vermiş olarlar, daxili istehsal zamanı isə bu artıma qismən, özü də çox az təsir edə bilərlər. Düzdür, ölkəmizdə yetişdirilməsi mümkün olmayan, bu səbəbdən də xarici ölkələrdən idxal olunan meyvələr də var ki, süfrələrin bəzəyinə çevrilir, amma yaxşı ki, onlar azlıq təşkil edirlər və sevindirici haldır ki, ən çox istifadə edilən meyvələrin, hətta sitrus meyvələrinin belə əkilib-becərilməsi üçün Azərbaycanda münbit şərait var. Eyni zamanda bazarların daxili istehsal hesabına tərəvəzlərlə də təmin edilməsi müsbət tendensiyadır. Həqiqətən də bu gün Azərbaycanda tərəvəz istehsalı qənaətbəxşdir və bazarlarda da bunun şahidi oluruq. Məhz mövsümi tərəvəzlərin istehsalı üçün istixanaların yaradılması bu baxımdan əvəzolunmazdır. Bu gün ölkəmizdə bir çox sahibkar var ki, onlar məhz istixana şəraitində tərəvəz yetişdirir və daxili bazarlarımızın tərəvəzlə təmin olunmasında onların rolu həqiqətən də danılmazdır. Hətta daxili bazarlarda məhsul bolluğu yarandığı zaman həmin sahibkarlar öz məhsullarını ixrac da edirlər və bütün bu faktorlar bazarda qiymətə bilavasitə təsir edir.

Nəzərə alaq ki, yeni il, bayram ərəfəsindəyik, deməli bahalaşma prosesinin səngiməməsi anlaşılandır və bir də onu bilməliyik ki, bu ərəfə bahalaşma prosesi üçün bir fürsət də yaradır, amma əsas məsələ bu prosesin sürətlənməsinin qarşısını almaqdır. Əsas məsələ bahalaşma tendensiyasının dayandırılmasıdır, çünki bahalaşma prosesi dayanmasa, qiymət artımı davam etsə, bu, inflyasiyanın sürətinə təkan verə bilər, hansıki arzuolunan, yaxud normal hal sayılmır. Diqqətə çatdırmaq yerinə düşərdi ki, belə arzuolunmaz vəziyyətdən yararlanmaq üçün bir növ pusquda duranlar da var və onlar hətta pensiyaların, əmək haqlarının, sosial ödənişlərin belə gələn ilin yanvar ayından artırılacağını indidən nəzərə almaq arzusundadırlar. Onların bu arzularının reallaşması inflyasiyanın artmasına gətirib çıxara bilər və buna, inflyasiyanın artmasına qəti imkan vermək olmaz. Hökumətimizin hələ bu ilin əvvəlindən "Antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında" Tədbirlər Planı hazırlaması da bu baxımdan təsadüfi deyil və bahalaşmanın qarşısının alınmasının vacibliyini təsdiq edir.

***İnam Hacıyev***

# “Paşinyana “qulaqburması” verməyin vaxtı yetişib”





**“Dünya birliyi, aparıcı dövlətlər və beynəlxalq təşkilatlar başa çatmaqda olan 2022-ci ildə Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanacağına böyük ümidlər bəsləyirdi. Əvvəlcə Brüsselin, sonradan Vaşinqtonun aktiv şəkildə bu prosesə qoşulması ilə sülh gözləntiləri daha da artsa, çox təəssüf ki, bu mühüm sənədi imzalamaq mümkün olmadı”. Bunu ”Səs” qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.**

Onun sözlərinə görə, sülh prosesinin pozulması hamının gözləri önündə baş verdiyindən ermənilər dünya ictimai rəyini bu dəfə çaşdıra bilmədilər: ”İlk növbədə, ermənilərin böyük ümidlər bəslədiyi ABŞ və Avropa İttifaqı sülh sazişinin imzalanmamasının əsas günahkarının Ermənistan Baş naziri olduğunu görmək məcburiyyətində qaldı. Baxmayaraq ki, N.Paşinyan Avropa İttifaqının vasitəçiliyi ilə Brüsseldə, ABŞ-ın iştirakı ilə Vaşinqtonda keçirilən danışıqlarda özünü sülh istəyən lider kimi göstərməyə çalışmış və dünya ictimaiyyətində ilin sonuna qədər Azərbaycanla sülh sazişi imzalamağa hazır olduğuna inam yarada bilmişdi. Ancaq heç kimin gözləmədiyi halda ilin sonunda növbəti dəfə ”erməni məkri” nümayiş etdirərək əldə olunan nailiyyətlərin üstündən xətt çəkdi və vasitəçiləri çıxılmaz vəziyyətdə qoydu. Əslində, 2022-ci il gözlədiyimizdən də uğurlu başlamışdı. Brüssel danışıqlarında əldə olunan kiçik irəliləyişlər hər şeyin planlaşdırılan qrafik üzrə getdiyini və bu danışıqların sülh sazişi ilə nəticələnəcəyini göstərirdi”.

A.Səmədov onu da bildirdi ki, Praqada Makronun ciddi ”dəstəyinə” baxmayaraq Ermənistan lideri Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyan sənədə qol çəkmək məcburiyyətində qaldı: ”Ancaq sonuncu görüş ərəfəsində Rusiya prezidentinin ”Valday təxribatı” onun üçün suda boğulanın ”saman çöpü” oldu. N.Paşinyan bu ”saman çöpündən” yapışaraq sülh prosesini pozmaq istəyən V.Putinlə eyni cəbhəyə keçdi. Bundan sonra onun Brüssel görüşü ərəfəsində səsləndirdiyi anlaşılmaz bəyanat- Makron yanımda olmasa danışıqlara gəlməyəcəyəm- bu mühüm tədbirin pozulması ilə nəticələndi. Dünya bir daha gördü və əmin oldu ki, N.Paşinyan kimi avantürist siyasətçilərlə ciddi razılaşmalara getmək və onun icrasına nail olmaq nə qədər çətindir. Öz qeyri-ciddi davranışı ilə Ermənistanın Baş naziri N.Paşinyan məsuliyyətsiz siyasətçi olduğunu başa çatmaqda olan 2022-ci ildə də hamıya sübut etməkdə davam etdi. Dünya birliyi bu davranışı çox böyük təəssüf hissi ilə müşahidə etdi. Ancaq müşahidə etmək kifayət deyil. N.Paşinyana ciddi ”qulaqburması” verməyin vaxtı artıq çoxdan yetişib”.

***Gülyana***

# “Beynəlxalq qurumlar ikibaşlı oyun oynayır”



“BMT Təhlükəsizlik Şurasının (TŞ) son iclasında Azərbaycanın suveren ərazisi olan və Şuşa ilə Laçını birləşdirən yolda baş verən hadisələr, eko-aktivistlərin keçirdiyi dinc etiraz aksiyası barədə aparılan müzakirələr, daimi və qeyri-daimi üzv ölkələrin məsələyə münasibəti qərəzlidir və ədalətsizdir. Həmçinin, Ermənistanın və ermənilərin yalanlarına şərik olmaqdan başqa bir şey deyil. Bir az da irəli gedərək deyə bilərik ki, BMT yönəlik, birtərəfli qərarları, ikili standartları ilə artıq bir qurum kimi nüfuzunu itirməkdədir”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.

Deputat bildirib ki, münaqişə tərəfləri arasında ayrıseçkilik prinsipləri BMT üçün yad deyil: ”Yadınızdadırsa, 1993-cü ildə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi və işğalçı ordunun torpaqlarımızdan qeyd-şərtsiz çıxarılması ilə bağlı BMT-nin qəbul etdiyi 4 qətnamə hələ də beynəlxalq qurumun arxivlərində ilişib qalıb. O hadisədən nə az, nə çox, düz 29 il keçir, amma BMT özünün qəbul etdiyi qətnamələrə hələ də hörmətsiz yanaşmaqda davam edir. Üstəlik də ötən işğal dövründə Azərbaycanla Ermənistanı, işğala məruz qalanla işğal edəni tərəzinin eyni gözünə qoyub, işğalçıya ”gözün üstə qaşın var” deməyib, əvəzində Azərbaycana torpaqlarını azad etmək fürsəti verməyib. Təmas xəttində hər dəfə vəziyyət gərginləşən kimi, ”məsələ yalnız sülh yolu ilə həll oluna bilər” mesajını verib. 27 il Ermənistanın işğalına susqunluğu ilə, dişsizliyi ilə haqq qazandırıb. 2020-ci ildə isə Azərbaycan bir neçə xəbərdarlıqdan sonra münaqişənin yalnız sülh yolu ilə deyil, həm də hərbi yolla həll ediləbiləcəyini 44 günlük müharibə ilə sübut etdi. Müharibə bitəndən sonra Azərbaycan Prezidenti İlham Əliyev Qarabağın statusunun ”gorbagor” olduğunu dəfələrlə bəyan etdi və Azərbaycanın ərazisində ikinci erməni dövlətinin yaranmasına əsla izn verilməyəcəyini bütün tribunalardan söylədi. Bu gün Qarabağda erməni əsilli sakinlər yaşayır və eyni zamanda həmin ərazilərdə Rusiya sülhməramlılarının çətiri altına sığınaraq sadə erməniləri girovluqda saxlayan separatçılar var. Onlar bu illər ərzində Azərbaycanın yeraltı sərvətlərini talamaqla özlərinə milyardlar qazandırıblar. Azərbaycanlı eko-aktivistlərin etiraz aksiyalarını keçirməkdə məqsədləri də bu qanunsuzluğu əngəlləməkdir, talamanı dayandırmaqdır. BMT TŞ-də anti-azərbaycançıları ölkələrin Şuşa-Laçın yolunda hərəkətin bərpa olunması, ”blokada”nın aradan qaldırılması ilə bağlı Azərbaycana təzyiq etməsi həvəsinə düşmələri riyakarlıq və ikiüzlülükdür. Bu prosesin başında dayanan da Fransadır, məhz rəsmi Parisin diktəsi ilə bəzi ölkələr həqiqəti deməkdən çəkindilər, anti-Azərbaycan qrupların qurduğu oyunun qurbanı oldular”.



İLHAM

## “İnsanları tanıdıqca, heyvanlara hörmətim artdı”

Bəzən kimdənsə yanlışlığa, səhvə yol verənlər haqqında dediyi sözləri eşidirik: ”Görən ağıl paylananda, bu insan harada imiş?”. Doğrudan da bu məsəlin hikməti, mənası çox böyükdür. İnsan olan Allahın ən ali varlığı sözü, əməli, işi, fəaliyyəti ilə digər canlı aləm təmsilçilərindən fərqlənməlidir. Ancaq elə kəsim var ki, bu fani dünyaya gəlib, haqq dünyasına qovuşana qədər ömrünü boş-boşuna keçirir, yanlışlıqlara yol verir, bir növ varlığı ilə yoxluğu bilinmir. Bəlkə də bu kateqoriyadan olan insanların mövcudluğuna göz yummaq olar. Deyə bilərik ki, -cəhənnəmə, özləri bilərlər. Ancaq fəlakət ondadır ki, bəzən yanlış həyat tərzi seçən insanlar cəmiyyətə hörmətsizlik edir, cinayət törədir, qaba və qeyri-etik hərəkətlərə yol verirlər. Təbii ki, bu da yanlış həyat seçən insanların yaxınlarına, əzizlərinə mənəvi və psixoloji cəhətdən mənfi təsir edir. Elə ailələr var ki, yaxınlarının qeyr-insanı davranışına görə, xəcalət çəkir, utanır, əksər hallarda doğulub boya-başa çatdığı kəndini, obasını, məhəlləsini tərk edir. Görünür, bu kimi hallara görədir ki, dahilərdən biri deyirdi ki, ”insanları tanıdıqca, heyvanlara hörmətim artdı”. Haqlıdır. Bəli, vəhşi təbiət aləminin vəhşi heyvanları belə, öz həmcinsindən olan heyvana toxunmur, onu öldürməyə, yararsız hala salmağa çalışmır. Ancaq insan olan kəsim arasında eləleri var ki, yüzlərlə həmcinsini öldürür, yaralayır, evini-eşiyini yağmalayır əl saxlamır, milyonları, milyardlara çevirib talan edir, gözü doymur. Dünyanın hər yerində özünə ev-eşik, malikanə alır, müxtəlif markalı bahalı maşınlara sahib olur, - daha bəsdir-demir, gözü yenə də axtarır. Bunlar öz yerində. Elə insanlar da olur ki, həyatından, yaşayışından, qohum-əqrəbasından, cəmiyyətdən, insanlardan, bir sözlə, yaranışından giley-güzar edir. Hər də sözünü - bircə ölsəydim- deyə başlayıb, -o dünyada rahat yatardım - deməklə bitirir. Bununla insan olaraq bu dünyaya gəlişinə şükür edənlərdən olmur. Bu yerdə böyük yunan filosofu Kısamın öz həyatında baş verən hadisə düşür.- Deməli, böyük filosof Kısam çay kənarında növbəti gəzintisi zamanı bir anlıq dayanır, durur, fikrə gedir və ətrafına boylanır, gözlənilmədən oradan meşəyə odun yığmağa gedən bir qıza hücum edir. Kısam qoca, qız isə cavan və gümrah. Filosof qızla bacara bilmir və niyyəti baş tutmur. Təcavüzdən canını qurtaran qız kəndə qaçır, hay çəkib yaxınlarını və əhalini başına toplayır. Kısamın heç də xeyirxah və alicənab insan olmadığını söyləyir. Bildirir ki, qoca filosof ona təcavüz etməyə çalışıb. Kənd əhli də bu xəbərdən təəccüblənir, əllərinə yaba, balta götürüb, filosofu öldürməyə tələsirlər. Bu zaman kəndin ağsaqqalı gözləri qan tutmuş insanların qarşısına çıxıb, onları çətinliklə də olsa saxlayıb, deyir: Filosof belə iş tuta bilməz, burada nəsə müəmma var. Razılaşma əldə olunur ki, bu müəmmanı Kısamdan öyrənsinlər, qaneedici cavab olmasa, filosofu öldürsünlər. Beləcə yaxınlaşırlar filosofa. Sorğu-sualdan sonra Kısam asta səslə deyir: Yadınızda vardımı, mənim bir filosof dostum vardı. Hər kəs -hə, -deyir. Kısam sözünü davam edərək, bildirir- o dünyasını dəyişdi. Az öncə dostum mənimlə ruhən əlaqə saxladı, dedi ki, o yenidən dünyaya gəlməyə hazırlaşır. Xahiş etdi ki, ona kömək etsin, o dünyaya insan olaraq gəlsin. Məndən çox xahiş etdi, yalvardı. Mən də sonda məcbur qaldım, sağıma-soluma boylanıb, bu cavan qızı gördüm. Onun vasitəsi ilə dostumun yenidən bu dünyaya insan olaraq gəlməsinə kömək etmək istədin, lakin alınmadı. Kənd ağsaqqalları məsələni başa düşürlər və Kısama - nəsə etmək olar - sualını edincə, -artıq gecdir - cavabını eşidirlər. Niyəsualına isə, Kısam: - görürsünüz, o talada otlayan iki eşşəyi, onların cütləşməsi nəticəsində təəssüf ki, dostum, insan olaraq deyil, heyvan kimi dünyaya gələcək.

Bəli, bizlər bu bəşər aləminə müxtəlif heyvan qiyafəsində gələ bilərdik. Ancaq şükürlər olsun ki, O mənim, sənin, bizlərin, ümumən bəşər hümmətinin insan olaraq fani hesab etdiyimiz bu dünyaya gəlməyimizə vəsilə oldu. Məhz insan olaraq dünyaya gəlməyimizə görə sevinib, şükür edənlərdən olmalıyıq.

# Pasientlər hansı səbəblərdən aborta üz tutur?

Cərrah mama-ginekoloq Ləman Əliyevanın SİA-ya verdiyi müsahibəsini təqdim edirik:




***- Həkim olmağa necə qərar verdiniz? Bu barədə sizə kimsə məsləhət verib?***

- Həkim olmağa qərar verənədək fərqli arzularım olub. Hətta uşaqlıqdan xüsusi bir dəftərim var idi ki, onun içində modaya aid şəkillər çəkir, xüsusi geyimlər hazırlayırdım. Uşaq vaxtı modelyer olmağı düşünürdüm. Amma müəyyən bir müddətdən sonra, yəni 9-10-cu siniflərdə həkim olmağa qərar verdim.

Məni həkim olmağa heç kəs məcbur etməyib. Düzdür, anam bu barədə mənə məsləhət verib. Lakin mən öz istəyimlə həkim olmuşam.

***- Ailənizdə sizdən başqa həkim var?***

- Maraqlısı da odur ki, ailəmizdə, hətta yaxın qohumların içərisində belə həkim yoxdur.

***- Sizcə, uğurlu həkim kimdir? Ümumiyyətlə, çox pasienti olan həkim uğurlu hesab oluna bilərmi?***

- İndi bu məsələ biraz mübahisəlidir. Həkimlik daha çox reklama bağlı bir sənət kimi inkişaf edir. Reklamı olan həkimin pasienti daha çox olur. Uğurlu həkimin kim olduğunu isə daha yaxşı pasientlər bilər.

***- Abortlara qarşı münasibətiniz necədir?***

- Abort bizim ölkəmizdə icazə verilən bir prosedurdur. Hər bir xanımın 12 həftəyə, yəni 3 ayına qədər uşağını aldırmaq imkanı var. Biz qanuna qarışa bilmərik. Yəni, buna icazə varsa və pasient də bizə yaxınlaşırsa, bunu bir həkim kimi etməliyik. Amma hər halda, mən də abort etmək istəməzdim. Lakin işimiz bunu tələb edir.

***- Pasientlər daha çox hansı səbəblərdən aborta üz tutur?***

- Səbəblər müxtəlifdir. İlk öncə deyim ki, mən cinsiyyətə görə olunan abortları etmirəm. Bu halla çox rastlaşıram. Amma inkişafdan qalma halları və qüsurlu döl abortlarını hər kəs etməlidir. Bəzilərinin isə 2-3 uşağı var və hamiləlikdən qorunmayıb, ona görə aborta müraciət edirlər.

***- Süni mayalanma ilə doğulan uşaqların digər körpələrdən hər hansı bir fərqi var?***

- Bu mənim şəxsi fikrimdir və mən süni mayalanma tərəfdarı olan həkim deyiləm. Bu proseduru etmirəm və mənə xoş təsir bağışlamır.

***- Birinci uşağı abort etdirdikdən sonra növbəti dəfələrdə hamilə qalmaq olar? Çünki belə bir deyim var ki, "İlk uşağı abort etmək yaxşı deyil". Burada hansı risklər var?***

- Bunu əvvəllər deyiblər. Çünki elm və texnologiya o vaxtı inkişaf etməyib. Bu halda da abort zamanı uşaqlığın içini qaşıyır, zədə vururdular və düşünürdülər ki, bundan sonra xanımlar hamilə qalmaz. Amma indi bu prosedur çox müasir texnologiyalarla həyata keçirilir.

***- Abort qiymətləri hansı aralıqdadır?***

- Dövlət müəssisələrində olan qiymət barədə məlumatım yoxdur. Biz özəl müəssisə olduğumuz üçün ortalama məbləğ 250 manatdır.

***- Xanımlar daha çox normal doğuşa, yoxsa keysəriyyə əməliyyatına üstünlük verirlər? Buna səbəb nədir?***

- Çox təəssüflər olsun ki, üstünlük keysəriyyə əməliyyatından yanadır. Buna səbəb onların normal doğuşa psixoloji cəhətdən hazır olmamaları, qorxu hissi, kənardan eşitdikləri neqativ fikirlər, doğuş zamanı ağrı olacağı və s. Biz onlara başa salırıq ki, normal doğuş daha yaxşıdır.

***- Sizin 4 övladınız var. Bəs, onlar normal doğuşla dünyaya gəlib?***

- Bəli, 4 övladım da normal doğuşla doğulub.

***- Narkotik istifadəçisi bir qadın dünyaya sağlam övlad gətirə bilərmi? Burada hansı risk faktorları var?***

- Təbii ki, narkotik istifadəçisi bir qadın ana ola bilər. Amma hamiləlik boyunca narkotikin neqativ təsirlərini görəcəyiksə, bunu öncədən demək çox çətindir.

Bu qadınlar tam sağlam uşaq da dünyaya gətirə bilər. Bu şəxsin immunitet və orqanizminin güclülüyündən asılı olan birşeydir. Lakin gələcəkdə uşaqda hansı patologiyaya rast gələcəyimizi öncədən deyə bilmərik.

***- Son zamanlar çoxuşaqlılıq dəbdir? Ailələr daha çox neçə uşağa üstünlük verir?***

- Dəbdir deməzdim, amma ailələrdə son zamanlar çoxuşaqlılığa istək daha çoxdur. Minimum 3 və 4-cü doğuş üçün gələn pasientlərimiz var.

***- Hamiləlikdən qorunmaq üçün dərialtı implantın insan orqanizminə hər hansı bir zərəri var? Bu prosedurdan hamı yararlana bilərmi?***

- Bunun insan orqanizminə zərəri yoxdur. Bu halda ki, xanımın özünün bilinən xəstəliyi yoxdursa. Qadın sağlamdırsa, heç bir ziyan yoxdur. Amma yan təsirləri var. Mən bunu bütün pasientlərimə deyirəm ki, implantı taxdıqdan sonra mensturasiya düzənsizliyi olur. Belə ki, ya mensturasiya tamamilə azalaraq kəsir, ya da günlərlə axıntı şəklində davam edir. İmlantı çıxaran kimi mensturasiya öz yerini alır.

***- Bəs, dərialtı implantda qiymət aralığı necədir?***

- Mən əvvəllər bu proseduru çox ucuz edirdim. Çünki xaricdən özüm ucuz qiymətə alıb gətirirdim. Hazırda əlimdə yoxdur deyə, burdan almaq məcburiyyətindəyəm. Burada da satış qiyməti baha olduğu üçün prosedur qiyməti 300 manatdır.

***- Həkim olmaq istəyən gənc xanımlara məsləhətləriniz nələrdir? Uğurlu həkim olmaq üçün hansı yollardan keçməlidirlər?***

- İndiki gənclər düşünür ki, universitet dövründə oxuyub, daha sonra yalnız praktika ilə həkim olacaqlar. Bu çox yanlışdır. Mütləq şəkildə işləyib öyrənməkdən əlavə, elmi bilik olmalıdır. Elmi bilik olmadan savadlı həkim olmaq mümkün deyil.

Mən, Azərbaycan Tibb Universitetini (ATU) 2005-ci ildə bitirmişəm. O vaxtlar xarici ölkələrdə təhsil almaq dəb deyildi. Mən sonradan Türkiyədə də təhsil aldım. Təhsil artırmaq çox önəmlidir.

***- Övladlarınızdan birinin sizin yolunuzu davam etdirməsini istəyərdiniz?***

- Düzünü desəm, istəmirəm. Lakin böyük oğlum bu il 11-ci sinifi başa vurur və tibbi seçib. Mən ona qarışa bilmərəm, arzusudur.

***- Həkim olmağın hansı çətinlikləri var?***

- Həkim olmağın stresi bir ömür bizə bəsdir. Normal doğuşda və hər hansı bir ginekoloji əməliyyatda onun stresi çox böyük olur. Hər şey həmişə yaxşı ola bilməz. Biz də hər hansı bir çətinliklə üzləşə bilərik. Bu qorxunu yaşamaq özü elə ən böyük stresdir".

*Ayşən Vəli*

## "Mentaliteti dəyişmək asandır"

"Hər bir millətin özünəməxsus səs tembri, davranışı, psixoloji xüsusiyyətləri var və onları dəyişmək çətindir. Bunlar ölkənin milli kodudur. Amma mentalitet dayanıqlı vərdişdir". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Əhməd Qəşəmoğlu deyib.



Onun sözlərinə görə, mentaliteti dəyişmək mümkündür: "Bunun asan yolları, xüsusi texnologiyası var. Baxmalıyıq ki, bu mentalitet nəyə xidmət edir. Bu baxımdan mentaliteti iki qrupa ayırmaq lazımdır. Elə mentalitet cəhətlər var ki, onlar bizim tərəqqimizə, xalqın inkişafına mənfi təsir göstərir. Bəziləri isə inkişafa müsbət təsir edir. Bir şey ki millətin fiziki sağlamlığına ziyan vurur, mənəvi zənginləşməsinə, əməyə yaradıcı münasibətin formalaşmasına mane olur, onları dəyişmək lazımdır. Əksinə, bunların inkişafına kömək edən mentaliteti isə daha da təkmilləşdirməliyik".

Sosioloq sözlərinə davam edərək bildirib ki, ümumilikdə adət-ənənələrimizə soyuqluq məsələsinə gəldikdə, qeyd etməliyik ki, biz gənclərimizlə normal işləmirik: "Uşaqlar dünyaya gəldiyi andan 6 yaşına qədər onların təlim-tərbiyəsi ilə məşğul olmalıyıq. Eyni zamanda, məktəb vaxtı da uşaqlara diqqət ayırmalıyıq. Bu sahədə böyük boşluq var. Gənclər başlı-başına qalıb. Bizim ciddi elmi-tədqiqat mərkəzlərimiz olmalıdır, tövsiyələr hazırlanmalı və dövlətə təqdim olunmalıdır. Bu təminat isə bizdə yoxdur. Ona görə də məsələlərə baxış bucağında böyük bir anlaşılmazlıq və kortəbiilik yaranır".

*Ləman Əlizadə*

## "YAŞAT" Fondu şəhid ailələrinin üzvlərinin təhsil almasına yardım edirmi?

"YAŞAT" Fondu tərəfindən şəhid ailələrinin övladlarına və müharibə iştirakçılarının rifah halının yüksəldilməsi istiqamətində bir çox tədbirlər həyata keçirilir. Həmçinin Fond tərəfindən şəhid ailələrinin üzvlərinin təhsil almalarını təmin etmək məqsədilə müxtəlif yardımlar edir. Mövzu ilə əlaqədar SİA "YAŞAT" Fondunun mətbuat xidmətindən məlumat alıb.

Qurumun mətbuat xidmətindən əldə olunan məlumata görə, şəhid ailələrinin üzvlərinin təhil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı xərcləri istiqaməti üzrə Fond tərəfindən xərclənən vəsait 1 347 611.19 AZN təşkil edir. Təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı xərcləri istiqaməti üzrə şəhid ailə üzvlərinin 339 və yaralıların 93 müraciəti olmaqla ümumilikdə 432 müraciət təmin edilib.

Fondun təşəbbüsü ilə təhsil haqqının qarşılanması üzrə təhsil müəssisələri tərəfindən 492 581.99 AZN vəsait qarşılanıb. Təhsil haqqının qarşılanması üzrə 242 müraciət Fond tərəfindən, 114 müraciət isə Fondun təşəbbüsü ilə təhsil müəssisələri tərəfindən qarşılanıb (orta və ali təhsil müəssisələri və təlim-tədris mərkəzləri). 07 dekabr 2022-ci il tarixinədək "YAŞAT" Fondu ilə Heydər Əliyev adına Müasir Təhsil Kompleksi, Türk Dünyası Bakı Atatürk Liseyi, XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi, Hədəf liseyi, Kaspi Tədris Mərkəzi, Evrika Liseyi və Dünya məktəbi arasında şəhidlərin övladlarına ödənişsiz təhsil alması məqsədi ilə niyyət protokolu imzalanıb. Bunula yanaşı "Dərs evi" tədris mərkəzi, "İnnab Business School", "SAT Group" və "Data Science Academy" təlimtədris mərkəzi ilə əməkdaşlıq qurulub. Rəsmi olaraq akkreditasiya olunmuş ali təhsil müəssisələrinə qəbul olmuş şəhid ailələrinin üzvlərinə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara "YAŞAT" Fondu tərəfindən birdəfəlik pul mükafatı - 2000 AZN təsis edilərək, ümumilikdə 72 şəxsin (43 şəhid ailə üzvü və 29 yaralı) hesabına vəsait köçürülmüşdür. 2021-2022-ci tədris ili üzrə 49 şəxsə (31 şəhid ailə üzvü və 18 yaralı), 2022-2023-cü il tədris ili üzrə isə 23 şəxsə (12 şəhid ailə üzvü və 11 yaralı) 2000 AZN vəsait köçürülüb.

*Banuçiçək Hüseynli*

# Yalançı “endirim” kampaniyaları: alıcıları necə aldadırlar?

**Son zamanlar şəhərimizdə fəaliyyət göstərən ticarət obyektlərində müxtəlif faizli güzəşti nəzərdə tutan ”endirim” kampaniyalarının keçirildiyi haqda elanların sayı kəskin şəkildə artıb. Mağazaların vitrinlərində, iri reklam şitlərində satış qiymətlərinin xeyli dərəcədə aşağı salınması barədə məlumat verilir.**



Xüsusilə bayram ərəfələrində bu prosesə daha çox təsadüf olunur. Belə ucuzlaşdırma kampaniyaları dünyanın bütün ölkələrində həyata keçirilir. Amma bizdən fərqli olaraq, digər ölkələrdə bu kampaniyaların təşkilində məqsəd istehlakçılara yüksək keyfiyyətli malları güzəştli qiymətlərlə satmaqdan ibarətdir. Bizdə isə, məlum prosesin reallaşdırılmasında məqsəd yalnız satılacaq mal və məhsullara tələbatı artırmaq üçün onların reklamının təşkili, satılmayan malları baha qiymətə alıcılara sırımaqdır. Bundan başqa, istifadəyə yararsız və istismar müddəti bitmiş mal və məmulatların satış dövriyyəsinə buraxılması üçün də bəzi ticarət obyektlərinin məlum ”endirim güzəştləri”ndən istifadə etdiyi heç kimə sirr deyil. Bu yazıda söhbət əsasən geyim bazarından gedir.







## Şifahi zəmanət...

Azərbaycan xalqının geyim mədəniyyəti olduqca zəngin olmaqla yanaşı, həm də həm də çox qədim tarixə malikdir. Təsadüfi deyil ki, bütün dünyadan fərqli olarq bizdə insanlara əsasən geyiminə görə münasibət göstərirlər. Bu səbəbdən də azərbaycanlılar üçün zəruri malar kateqoriyasında geyim hətta qidadan da öndə yer alır. Ən ucuz və keyfiyyətsiz ərzaqla qidalanan, amma bahalı və dəbdə olan geyimə üstünlük verən insanlar bizdə kifayət qədər çoxdur. Belələri hamımızın dost-tanışları arasında var. Bu isə, ölkədə paltar bazarının çiçəklənməsinə böyük imkanlar yaradıb. Belə çiçəklənməni əlbəttə, yaxşı hal hesab etmək olardı, bir şərtlə ki, bu, paltar bazarının keyfiyyətsiz məhsullarla doldurulması ilə müşayiət olunmasın.

Bu gün şəhərimizdə insanların geyimə olan tələbatını ödəmək üçün müxtəlif ixtisaslaşmış geyim mağazaları, nəhəng ticarət mərkəzləri fəaliyyət göstərir. Hər bir mövsümün əvvəlində mağazalara yeni geyim kolleksiyaları gətirilir, lakin onların qiyməti heç də hər kəsin cibinə uyğun gəlmir. Xarici ölkələrdə bir ilin geyim kolleksiyasi növbəti ildə satılmır. Çünki mövsümün sonuna doğru geyim kolleksiyalarinda endirim kampaniyaları elan olunur və beləliklə də bu malların demək olar ki, hamısı satılır. Bizdə isə, əksər hallarda satılmamış mallar növbəti ilə saxlanılır və guya yeni dəbə minmiş paltar kimi yenidən satışa çıxarılır.

Bəzən geyim əşyalarına şifahi zəmanət verən satıcılar da tapılır. Məsələn, tanıdığım bir nəfərə bu cür ”elit” dükanların birindən ayaqqabı alarkən satıcı belə demişdi:- ”Bu ayaqqabı illərlə xarab olan deyil, ən azı 2 il zəmanət verirəm. Bir il ərzində xarab olsa gətirib qaytararsan ”

Əslində, hər hansı bir alıcıya belə söz demək onu kobud təhqir etmək deməkdir. Yəni, səni avam yerinə qoymuşam. Aydındır ki, heç kim 1 ildən sonra gəlib deyəsi deyil ki, ayaqqabının filan yeri cırıldı.

## 70 faizlik endirim, yoxsa 7 faizlik “qaldırım”?

Hazırda paytaxtın geyim mağazalarının əksəriyyəti ”endirim” kampaniyasına start verib. Məsələyə aydınlıq gətirmək üçün bir neçə ticarət mərkəzinə üz tutduq. İlk olaraq baş çəkdiyimiz obyektlər şəhərin mərkəzində yerləşən paltar dükanları oldu.




Həmin mağazaların əksəriyyətinin vitrinlərində yazılmış lövhələrdə 30, 50, hətta 70 faiz endirimin elan edildiyinin şahidi olduq. Oradakı malların qiymətləri ilə maraqlanmağa başladıq. Qiymətlər endirimdən sonrakı rəqəmlərlə göstərilmişdi. Belə çıxırdı ki, endirim edilənədək hər hansı şalvar və ya köynək 200 manata satılırmış. Geyimlərin keyfiyyətindən və tikiliş səviyyəsindən azca anlamaq kifayət edir ki, belə paltarların real dəyərinin 20-30 manat olduğunu başa düşəsən. Belədə mağaza, məsələn, 30 manata satmaqdan məmnun olduğu hər hansı bir geyimi, guya əvvəlki qiyməti 100 manat imiş kimi, 60 faizlik endirim adı ilə 40 manata satır.

Mağazalardakı vəziyyəti daha ətraflı öyrənmək üçün alıcılarla söhbət etməyə başladıq. Onların dediyinə görə, heç bir mağazada endirim-filan yoxdur. Əgər nadir hallarda olarsa, bu mövsümü keçmiş, satılmayıb qalan aşağı keyfiyyətli mallara aiddir. Həm də bu zaman çox cüzi endirimdən söhbət gedə bilər. Məsələn, əvvəlki qiyməti 55 manat olan malı endirim kampaniyasından sonra ən aşağısı 50 manata ala bilərsən. Alıcıların dediyinə görə, ”endirim” kampaniyalarında çox sadə fırıldaqdan istifadə olunur: əvvəllər malın qiyməti, məsələn, 50 manat idisə, endirim reklamında həmin rəqəm 100 manat göstərilir və ”endirimlə” yenidən 50 manata satılır.

## ”Malın sənədləri müdirdədir...”

Hər bir halda belə ”endirim” kampaniyaları zamanı mağaza heç nə itirmir, əksinə, əvvəlkindən çox qazanır. Çünki endirim adı eşidərək mağazaya daxil olan alıcıların sayı artır. Gözəl-göyçək satıcı qızlar da (boş yerə xarici görünüşü gözəl olan gənc qızları belə yerlərdə işə cəlb etmirlər ki?) əzilib-büzülərək müştəriyə şirin və yağlı dillər tökür, malı layiq olmadığı təriflərə qonaq edərək alıcının dükandan əliboş çıxmasına imkan vermirlər. Hansısa mala baxmaq istəyən alıcıya isə təxminən belə sözlər deyilir- ”Siz özünüz müasir, savadlı adama oxşayırsınız. Elə geyiminizdən hiss olunur ki, aristokrat adamsınız (?). Sizcə belə malı bundan aşağı qiymətə almaq olarmı?”

”Qoltuğuna qarpız verilmiş” və xeyli təriflənmiş (biz ümumiyyətlə, millət olaraq tərifdən ötrü sinov gedirik) müştəri isə bir az tərəddüd etsə belə, plastik manekenə oxşayan satıcı xanımın qızıl kimi vaxtını aldığından xəcalət çəkərək həmin malı almağa məcbur olur.

Qeyd edək ki, müşahidələrimizi təkcə sözügedən ərazidə deyil, şəhərin digər ərazilərindəki ticarət obyektlərində də davam etdirdik. Vəziyyət elə eynidir. Qara Qarayev m/s yaxınlığında yerləşən mağazalardan birində satıcıya bir köynəyi göstərib, onun qiymətinin elə endirimdən əvvəl də 35 manat olduğunu bildirdikdə, əvvəlcədən xüsusi təlimatlandırılmış satıcı belə cavab verdi: ”Yox xanım, bu siz deyən mal deyil. Sadəcə hansısa mala oxşaya bilər. Bir bunun materialına baxın, bunu təzə gətirmişik, özü də ən yaxşı satılan maldır ” Qarşısındakını inandırdığını güman edən satıcıya ”elə isə, zəhmət olmasa bu malın qaiməsini və ya mağazaya daxil olduğu tarixi göstərən bir sənəd gətirin, əgər siz deyən olsa, onda mən bu köynəyi alacam”- dedikdə onun üzündə yaranan təəccüb ifadəsini görmək lazım idi- bunu sözlə ifadə etmək mümkün deyil Nə isə, dükandakı böyüklərlə məsləhətləşməyə gedən satıcı dilxor halda qayıtdı: ”Xanım, sənədlər müdirdədir, o da Sumqayıtdadır. Başqa vaxt gəlsəniz sənədi göstərə bilərik ”

Bu satıcıya ”hər bir malın sənədləri müdirin cibində yox, mağazada olmalıdır” tövsiyyəsini versək də, bunun mənasız olduğu aydın idi...

## Kustar sexlərin ”brend” paltarları

Normal halda bir məhsulun üzərinə maksimum 20-30 faiz civarında satış marjası əlavə oluna bilər. Çünki, bundan artıq əlavə etmək aşkar soyğunçuluqdur. Əgər malın qiyməti 50 faiz salınırsa, deməli onun maya dəyərinin üzərinə çox pul gəlinibmiş (bu zaman həmin malı təklif edənin nüfuzu aşağı düşür), ya da burada nə isə qeyri-qanuni məsələ var.

Azərbaycanda satılan xarici firmalara məxsus geyimlərin çoxu xarici ölkədə dəbdən düşüb və ya hazırlandığı material sağlamlıq üçün zərərlidir. Bu prosesin vüsət almasının əsas səbəbi Azərbaycan əhalisinin geyim ”xəstəliyi” və məcburiyyətdən ucuz mala üstünlük verməsidir.

Satışda Çində kustar sexlərdə istehsal olunmuş və üzərinə nüfuzlu şirkətlərin markası vurulmuş paltarlar da çoxdur. Belə sexlərdə çalışanlar olduqca peşəkardırlar. Onlar geyim nümunələrini orijinala elə ustalıqla oxşadırlar ki, alıcı heç cür onları bir-birindən ayıra bilmir.

Baş çəkdiyimiz mağazalarda rastlaşdığımız bir məqam da diqqətimizdən yayınmadı. Belə ki, xarici şirkətlərin adını daşıyan məşhur mağazaların çoxunda satışa çıxarılan geyimlər paltar yarmarkalarında satılan geyimlərdən heç nəyi ilə fərqlənmir. Onları bir-birindən ayıran yeganə xususiyyət isə böyük qiymət fərqidir. Məsələn, yarmarkada eyni paltar tutaq ki, 30-40 manata satılırsa, mağazada bu paltar manekenə geyindirilərək xüsusi işıqlandırılma sisteminin köməyi ilə daha parlaq göstərilir və həmin qiymət 100-150 manat təşkil edir.

Geyim bazarında yerli istehsalın da payı az deyil. Satışda Azərbaycanda istehsal olunduğu sezilən mallara da çox rast gəlinir. Insafən qeyd etmək lazımdır ki, ölkədə istehsal olunub xarici marka adı altında satılan malların bəziləri hətta, tanınmış xarici firmaların mallarından da keyfiyyətlidir. Sadəcə, burada ”brend” məsələsi var, alıcılar heç cür inanmırlar ki, yerli mal xarici istehsaldan yaxşı olar. Ölkə istehsalı olan belə malların üzərinə tanınmış xarici firmalara məxsus etiketlər yapışdırıldığından qiymətləri heç də ucuz deyil.

***Lalə Mehralı***

*P.S. Mağazaların adlarını bilərəkdən yazmadım. Əvvəla, Azərbaycanda mediada istər müsbət mənada, istərsə də mənfi mənada ad çəkilməsi reklam kimi qəbul edilir. İkincisi də ad çəkməyə ehtiyac belə yoxdur- qeyd olunan vəziyyətə bütün mağazalarda rast gəlmək olar.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

ARAŞDIRMA

SON SƏHİFƏ
SƏS
23 dekabr
2022-ci il



# Ronaldinyo:
## “Messi 8-ci dəfə "Qızıl top"u alacaq"

Əfsanəvi braziliyalı futbolçu Ronaldinyo 2023-cü ildə ”Qızıl top” mükafatı üçün favoritini açıqlayıb. Qol.az xarici KİV-lərə istinadən xəbər verir ki, o, bu mükafatı Argentina millisinin və PSJ-nin futbolçusu Lionel Messinin alacağını düşünür: ”Düşünürəm ki, Lionel Messi 8-ci dəfə ”Qızıl top”u alacaq. O, dünya çempionatının finalında dubl edib və kuboku qazanıb. Bunun sayəsində Leo tarixə düşəcək”.

Qeyd edək ki, 35 yaşlı Messi bir neçə gün əvvəl Argentina millisi ilə DÇ-2022-nin qalibi olub. Finalda dubl edən Messi ümumilikdə bu mundialda 7 qola imza atıb. Forvard yalnız Fransa yığmasının üzvü Kilian Mbappedən geri qalıb (8 qol). Həmçinin Messi bu mövsüm PSJ-nin heyətində 19 oyunda 12 qol vurub və 14 qolun ötürməsini verib. Futbolçu daha əvvəl 7 dəfə ”Qızıl top” mükafatına layiq görülüb.

# DİQQƏT:
## Ürək yanmasına yaxşı təsir edən qidalar bunlardır



**Ürək yanması qastritli xəstələrdə rast gəlinən ümumi bir vəziyyətdir. SİA xarici mətbuata istinadən xəbər verir ki, ürək yanmasına səbəb olan şərtlərdən biri də çox yemək yeməkdir. Bəs mədə xəstəliklərinə faydalı olan qidalar hansılardır?**

**Ürək yanmasına yaxşı təsir edən qidalar**

**Zəncəfil:** Bulantı və qusma üçün təbii vasitədir. Zəncəfilin ürək yanmasına təsiri ilə bağlı məhdud sübutlar olsa da, bu, yanmanı azaltmağa kömək edə bilər.

**Banan və qovun:** Bu meyvələrin təbii olaraq turşuluğu da azdır və tez-tez yanmanı azaltmaq üçün tövsiyə olunur.

**Yaşıl tərəvəzlər:** Təbii olaraq az yağ, turşu və şəkər olan yaşıl tərəvəzlərə yaşıl lobya, brokoli, ispanaq və kərəviz daxildir.

**Yulaf əzməsi:** Yulaf əzməsi liflə doludur. Bu, yanma riskinin aşağı olması ilə əlaqələndirilir.

**Dənli bitkilər və kartof:** Tədqiqatlar göstərir ki, taxıl və kartof istehlakı qastroezofageal xəstəliyinin riskini 42% azaldır.

Əgər tez-tez ürək yanması ilə qarşılaşırsınızsa, simptomlarınızın yaxşılaşdığını görmək üçün bu siyahıdakı bəzi qidaları pəhrizinizdən çıxarmağa çalışın.

Hansı qidaların mədə yanmasına səbəb olduğunu izləyə bilmək üçün yemək gündəliyi saxlamaq yaxşı fikirdir. Siz həmçinin banan, qovun, yulaf əzməsi, dənli bitkilər, kartof, zəncəfil və yaşıl tərəvəzlər kimi mədə yanmasını aradan qaldırmağa kömək edən qidaları pəhrizinizə əlavə etməyə cəhd edə bilərsiniz.

*Ayşən Vəli*

## İlin son FİFA reytinqi: Millimiz 121-ci pillədə qaldı

FİFA milli komandaların 2022-ci il üçün sonuncu reytinq cədvəlini açıqlayıb. Beynəlxalq futbol qurumunun saytında yer alan məlumatda deyilir ki, bundan əvvəlki reytinq cədvəli ilə müqayisədə 2 pillə irəliləyən Azərbaycan milli komandası 1151 xalla 121-ci pillədə qərarlaşıb. Buna millimizin yoldaşlıq görüşlərində Moldovanı 2:1, Şimali Makedoniyanı isə 3:1 hesabı ilə məğlub etməsi səbəb olub.

Qeyd edək ki, siyahıya Braziliya millisi (1840) başçılıq edir. DÇ-2022-nin qalibi Argentina (1838) 2-ci pilləyə yüksəlib. Fransa (1823) isə 3-cüdür.




## Kəskin əzələ ağrısı, qızdırma, öskürək - Qapımızı döyən hansı VİRUSDUR?



Son günlərdə yüksək temperatur, davamlı öskürək, güclü əzələ ağrıları ilə müşahidə edilən xəstəlik yayılıb. Simptomların kəskinliyi bəzi insanlarda yeni virusun yayılması barədə şübhələr yaradır. Bununla yanaşı insanları bu xəstəlikdən necə qorunmaları, müalicə üsulları maraqlandırır. Bizim.Media-nın sualını cavablandıran həkim-infeksionist Mərdan Əliyev deyib ki, sözügedən simptomlar bu mövsümdə yayılan kəskin respirtor virus infeksiyalarıdır. Sadalanan simptomlar az-çox olmaqla əksər viruslarda rast gəlinir:

”Bu xəstəliklərin demək olar ki, hamısının simptomları eynidir. Burada simptomları konkret olaraq fərqləndirmək çətindir. Əgər tipik gedişat göstərən xəstəlik olarsa, o zaman müəyyən qədər ayırd etmək olur ki, hansı virusdur. Bəzi xüsusiyyətlərinə görə viruslar özünü daha aydın büruzə verirlər. Məsələn, rotavirusda mədə-bağırsaq pozğunluğu daha çox rast gəlinir. Bəzi hallarda xəstə qrip əlamətləri ilə müraciət edir, amma bu əlamətlər olduğu halda bilirik ki, rotavirusdur”.

Həkim qeyd edib ki, hansı virus olmağını daha dəqiq bilmək üçün mütləq analiz verilməlidir: ”Şübhələndiyimiz halda, xüsusilə də temperatur olarsa, bu simptomlarla müraciət edənlər COVID-19 testi verir və əksər hallarda nəticə neqativ çıxır”.

Xəstəlikdən qorunmağa qaldıqda isə həkim vurğulayıb ki, bunun üçün tibbi maska taxmaq, əl gigiyenasına riayət etmək və sosial məsafəni qorumaq lazımdır: ”Bu xəstəliklər hava damcı yolu ilə yoluxur. Ona görə də qorunmaq üçün birinci növbədə tibbi maska taxmaq lazımdır. Eyni zamanda xəstə şəxslərlə sosial məsafəni qorumaq gərəkdir. Ancaq bu cür qorunmaq mümkündür”.

## Bank hesablarından oğurluq edənlər tutulub

**Binəqədi Rayon Polis İdarəsinin 43-cü polis bölməsinə ayrı-ayrı vaxtlarda üç vətəndaşın bank hesablarından müxtəlif məbləğlərdə pulların çıxarılaraq oğurlanması barədə məlumat daxil olub.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində oğurluq əməllərində şübhəli bilinən Ağsu rayon sakini, əvvəllər dəfələrlə məhkum olunmuş Vüsal Əliyev, Bakı şəhər sakinləri Adil Orucov və Müşviq Rəhimov müəyyən olunaraq saxlanılıblar. Faktla bağlı Binəqədi Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**